Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

22 APREL 2020-ci il

№ 62 (4193)

Qiymıəti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ TARİXİNDƏ HƏMSƏDRLƏRİN İLK VİDEOKONFRANSINA ERMƏNİ TƏXRİBATI - MNATSAKANYAN QONDARMA «DQR»DƏ QANUNSUZ SEÇKİDƏN NİYƏ SÖZ AÇIB...

■ səh. 8 ■

Azərbaycan Ordusunda düşməni lərzəyə salacaq yeni hərbi texnikalar - sırada Fransanın "Thales International"ı, İtaliyanın "Leonardo"su var... ■ səh. 9 ■

Dövlət bu dəfə həm vətəndaşları, həm də bankları xilas edəcək - yeni sosial güzəşt paketi gündəmdə... ■ səh. 11 ■

Ermənistanda yeni anti-Putin dalğası - korrupsioner, Rusiya dağılacaq, SSRİ bərpa olunur... ■ səh. 7 ■

Vilayət Eyvazov burada da optimal çıxış yolunu tapdı - məsuliyyətə cəlb edilmiş anaların azyaşlı övlad(lar)ı... ■ səh. 5 ■

Cəmi 15 gündə 80 min əmək müqaviləsi - Azərbaycanda "kölgəli" məsələ sürətlə işığa çıxır ■ səh. 12 ■

Dünya yeni iqtisadi xaos astanasında - neft qiymətləri yüksəlməsə... ■ səh. 13 ■

Azərbaycanın enerji sektoruna xarici investisiya marağı - hələlik 7-dən 2-ni seçdik... ■ səh. 12 ■

Azərbaycanda ödənişli ictimai işlərlə məşğul olanların sayı 2 min də çoxaldı... ■ səh. 14 ■




■ səh. 4 ■

- Azərbaycanın enerji sektorunda xarici investorların iştirakı şəffaf şərtə bağlandı - Prezident sözü...
- «Barmek» qovulmasaydı, enerji sektoru dövlətləşdirilməsəydi - Prezident tarixi faktlar açdı...



Cəmiyyətdən Prezidentə yazılan məktubların əsas ideyaları - dövlətin sosial siyasəti, Qarabağ, koronavirusa birgə qalib gələcəyik... ■ səh. 3 ■

Paşinyanın dünya üçün «demokratiya oyununu» ifşa edən yeni fakt - İTV-nin sədri niyə istefa verdi... ■ səh. 7 ■




«Evronyus»un «Azərbaycan ədalətsizliyi» - dünya Ermənistandakı tənəzzüldən danışır, «Evronyus» isə... ■ səh. 6 ■

■ səh. 2 ■
"Prezidentin enerji sektorumuza xarici investorların gəlişini konkret şərtə bağlaması praktik və strateji əhəmiyyət daşıyır"



■ səh. 2 ■
"Bakı-Xəbər"in baş redaktor müavininin evindəki oğurluğun araşdırılması Baş prokurorun şəxsi nəzarətinə götürüldü...



■ səh. 5 ■
Elektron KİV-də media etikası problemi - bəzilərinin əndazəni aşması tərbiyəsizliyə çevrilir...



■ səh. 8 ■
Bəzi deputatlardan seçici narazılığı problemi yenidən baş qaldırır - heç olmasa virtual görüşlər keçirmək olmazmı...



■ səh. 15 ■
Kolleclərimizdə yeni ixtisaslar - aqroturizm, torpaq mühafizəsi...



## Prezident İlham Əliyev İsmayıllının icra başçısına töhmət elan edib

**Prezident İlham Əliyev Nahid Bağırova töhmət elan edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Rza oğlu Bağırova Azərbaycan Respublikasının ərazisində koronavirus infeksiyasının (COVID-19) yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunmuş xüsusi karantin rejimi qaydalarını pozduğuna görə töhmət elan edilir.

## Azərbaycanda daha 44 nəfər koronavirusa yoluxub, 74 nəfər müalicə olunaraq sağalıb, 1 nəfər vəfat edib...

**Azərbaycan Respublikasında 44 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 74 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəkərli diabet, hipotireoz və xronik böyrək xəstəliyi olan 1963-cü il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1480 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 865 nəfər müalicə olunaraq sağalıb, 20 nəfər vəfat edib, 595 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 14 nəfərin vəziyyəti ağır, 20 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

**Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 102.764 test aparılıb.**

# "Bakı-Xəbər"in baş redaktor müavininin evindəki oğurluğun araşdırılması Baş prokurorun şəxsi nəzarətinə götürüldü...

**"Bakı-Xəbər" qəzetinin baş redaktor müavini Tahir Tağıyevin valideynlərinin Yeni Ramana qəsəbəsindəki evində törədilmiş oğurluq işinin Binəqədi Rayon Polis İdarəsində aparılan istintaqına rayon prokurorluğundan müəyyən qanunsuz müdaxilələr edilməsi ilə bağlı Baş prokuror cənab Zakir Qaralova müraciətinə çox operativ cavab verilib.**




Baş Prokurorluğun Mətbuat Xidmətinin rəhbəri Eldar Sultanovdan aldığımız məlumata görə, iş Baş prokurorun şəxsi nəzarətinə götürülərək Bakı Şəhər Prokurorluğuna tapşırılıb.

T.Tağıyev isə işin obyektiv aparılması üçün gərəkli göstərişləri verdiyi üçün Baş Prokuror Zakir Qaralova minnətdarlığını bildirib: "İstintaqın başlanğıcından Bakı şəhər Prokurorluğunun bu işə həssas yanaşdığının şahidi olmuşduq. Belə ki, Binəqədi Rayon Prokurorluğunun Binəqədi Rayon Polis İdarəsində aparılan istintaqın obyektiv gedişinə maneələr törətməsi ilə bağlı şifahi müraciətimizə Bakı Şəhər Prokurorluğunda çox həssas yanaşıldığı və araşdırma aparıldığını bilirdik.

Müraciətimizə dərhal reaksiya verdiyi və oğurluq faktı üzrə araşdırmanın obyektiv aparılması üçün gərəkli göstərişləri verdiyi üçün Baş prokuror Zakir Qaralova minnətdarlıq edirik.

Eyni zamanda, ümid edirik ki, Bakı Şəhər Prokurorluğu Binəqədi Rayon Polis İdarəsində aparılan istintaqın gedişinə rayon prokurorluğu tərəfindən qanunsuz müdaxilə cəhdlərinə imkan verməyəcək və oğruların himayə edilməsinin qarşısını alacaq".

# Aydın Quliyev: "Prezidentin enerji sektorumuza xarici investorların gəlişini konkret şərtə bağlaması praktik və strateji əhəmiyyət daşıyır"

**Prezidentin "Azərenerji" rəhbərliyi ilə görüşdə söylədiyi "enerji potensialımız iqtisadi inkişafa uyğun olmalıdır" fikri bu gün bütün enerji sektoru qarşısında qoyulmuş əsas strategiyadır. Deyiliş tonundan hiss olunur ki, Prezident əldə olunmuş indiki səviyyə ilə kifayətlənmir və iqtisadiyyatdakı yeni çağırışları qabaqlamaq üçün yenə də nələrinsə edilməsini vacib sayır.**




Tamamilə doğrudur ki, enerjiyə müasir tələbatın yeni tendensiyaları yaranır və neft kimi ənənəvi enerji resursunun qiymət tənəzzülü elektrik enerjisinin ən müxtəlif növlərinə tələbatı artırır.

Bu sözləri baki-xeber.com-a eyniadlı saytın və qəzetin qurucusu və baş redaktoru, politoloq Aydın Quliyev ölkə başçısının "Azərenerji" rəhbərliyi ilə görüşdə səsləndirdiyi fikirləri şərh edərkən deyib. Politoloqun sözlərinə görə, görüşdə deyilənlərdən yaxın dövr üçün enerji tariximizdə birbirini əvəz etmiş mərhələlərin və birindən o birinə keçidin təsadüf olmadığını öyrəndik: "Təsdiqlənir ki, bir vaxtlar elektrik enerjisi sektorumuzun bəzi xarici investorlara verilməsi və sonra yenidən dövlətləşdirilməsi zamanın obyektiv tələbi idi. Prezident illər öncə enerji sektorumuzun dövlətləşdirilməsi ilə yeni inkişaf mərhələsinin başlandığını faktlarla izah etdi. Bu gün Azərbaycanın elektrik enerjisinin əlçatanlığına görə dünyada qabaqcıl yer tutması məhz həmin dövlətləşdirmə siyasətinin mühüm nəticələrindən biri sayıla bilər".

Aydın Quliyevin sözlərinə görə, ortada olan real fakt budur ki, Azərbaycanın elektrik enerjisi sektorunda xarici investisiyaların yeni iştirak mərhələsi açılıb:"Bu yeni mərhələ iki nöqteyi-nəzərdən daha çox diqqət cəlb edir. Dövlətlər arasında əlaqələrin və iqtisadi fəallığın azaldığı indiki şəraitdə Azərbaycanın enerji sektoruna böyük xarici investisiya marağı var və Azərbaycan hakimiyyəti bu sektorda xarici investisiyanın iştirakı üçün çox konkret, şəffaf və milli maraqlara uyğun şərtlərlə çıxış edir. Bu sektora müraciət edən 7 xarici şirkətdən 2-nin seçilməsi isə marağın böyüklüyündən xəbər verir".

Politoloq deyir ki, Prezidentin xarici investorları əsasən yeni elektrik stansiyalarının qurulmasına vəsait qoymağa dəvət etməsi dəqiq və perspektivli şərtdir: "Prezidentin enerji sektorumuza xarici investorların gəlişini konkret şərtə bağlaması praktik və strateji əhəmiyyət daşıyır.

Heç şübhə yoxdur ki, xarici investorlar üçün şərtlərin dəqiq və şəffaf olması çox önəmlidir. Prezidentin nümayiş etdirdiyi bu mövqe Azərbaycanın enerji sektorunda bir vaxtlar olduğu kimi "BARMEK"ə bənzər şirkətlərin peyda olmasının qarşısını kəsinliklə almağa yönəlib. İndi xarici investorlar dəqiq bilir ki, Azərbaycanın enerji sektoruna hansı şəraitdə işləməyə gəlirlər".

Aydın Quliyevin məlum görüş barədə son dəyərləndirməsi isə belə oldu: "Prezidentin "Azərenerji"də görüşü enerji tariximizdə dövlətləşdirmə və özəlləşdirməyə dair bir sıra ibrətamiz faktların açılması, habelə perspektivlərin göstərilməsi nöqteyi-nəzərindən əhəmiyyətlidir".

***Baki-xeber.com***

# Lavrovdan Qarabağ açıqlaması - "...danışıqların indiki formatı faydalıdır"

**Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqların indiki formatı yaxşı və faydalıdır. Bunu Rusiyanın Xarici işlər naziri Sergey Lavrov brifinq zamanı "Trend" BİA-nın baş direktor müavini Gülnarə Məmmədzadənin sualına cavab verərkən deyib.**

Nazir bildirib ki, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə qətnamələri məlum sənədlərdir:"Bu sənədlər hərbi əməliyyatların qızğın vaxtında qəbul edilib və ilk növbədə əməliyyatların dayandırılmasını və danışıqlara keçidi nəzərdə tuturdu. Bu sənədlərdə Azərbaycan Respublikasının ərazi bütövlüyü təsdiqlənib. Onlarda, həmçinin, müharibəni dayandırmaq və danışıqlara keçmək tələbi də yer alırdı. Həmin dövrdən danışıqlara keçilib. 2001-ci il razılaşmaları olub, digər formatlarda növbəti razılaşmalar olub. İndi artıq danışıqlar formatı qəbul olunub: Bakı, Yerevan, üç həmsədr qismində Minsk qrupu və ATƏT-in hazırkı sədrinin nümayəndəsi. Format faydalıdır və yaxşıdır. BMT Təhlükəsizlik Şurasının müharibəni dayandırıb danışıqlara keçmək tələbi məhz bu formatda əks olunub".

S.Lavrov əlavə edib ki, Madrid prinsipləri, Rusiyanın 2010-2011-ci illərdə hazırladığı sənədlər, Kazan sənədi və ötən ilin aprel ayında Moskvada Rusiya, Azərbaycan və Ermənistan XİN rəhbərlərinin həmsədrlərin iştirakı ilə müzakirə etdiyi layihələr mövcuddur və onlar hazırda fəal müzakirə olunur: "Bu sənədlər nizamlamanı mərhələli yanaşma əsasında davam etdirməyi və ilk növbədə daha aktual problemləri, Dağlıq Qarabağ ətrafında bir sıra rayonların azad olunmasını, nəqliyyat, iqtisadi və digər kommunikasiyaların açılmasını nəzərdə tutur. Mən əminəm ki, bu sənədlərin imzalanması barədə qərar qəbul edilsə, bu, BMT Təhlükəsizlik Şurasının müharibəni dayandırıb danışıqlara keçməyi tələb edən qətnamələrin icrasında vacib addım olacaq. Danışıqlar başlayıb, indi isə razılaşmaq lazımdır. Biz ATƏT-in Minsk qrupunun həmsədrləri olaraq məhz buna çalışırıq".

# Cəmiyyətdən Prezidentə yazılan məktubların əsas ideyaları - dövlətin sosial siyasəti, Qarabağ, koronavirusa birgə qalib gələcəyik...

**Müasir dünyanın mübarizə apardığı koronavirus pandemiyası bəşəriyyətin düzəninin dəyişməsinə səbəb oldu. Hazırda dünya insanını bu virusdan tez bir zamanda xilas olmaq düşündürür. Bu gün pandemiyanın yayıldığı bir çox dövlətdə virusa qarşı mübarizənin elə də effektiv təşkil edildiyinin şahidi ola bilmirik.**

Bir sıra ölkələrdən fərqli olaraq, Azərbaycan dövlətinin pandemiyanın geniş yayılmasının qarşısının alınması üçün tətbiq etdiyi mübarizə üsulları öz effektivliyi və yeniliyi ilə diqqəti cəlb edir, seçilir. Prezident İlham Əliyevin rəhbərliyilə həyata keçirilən koronavirus pandemiyasına qarşı mübarizə prosesi, bu istiqamətdə təqdim edilən Azərbaycan modeli beynəlxalq və ölkə ictimaiyyətinin təqdir etdiyi bir modeldir.

Pandemiyanın qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı addımların, gördüyü işlərin, qəbul etdiyi qərarların ölkə ictimaiyyəti tərəfindən müsbət qarşılandığı məlumdur. Biz pandemiya dövründə ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən bütün tədbirlərə ictimaiyyətin necə münasibət bəslədiyini onların Prezidentə göndərdiyi dəstək məktublarının, müraciətlərinin timsalında görə bilirik. Bu məktubu göndərənlər arasında ölkə ictimaiyyətinin populyar simaları da, sadə fəhlə də, müharibə veteranı da, müəllim də var. Bir sözlə, bu məktubu müxtəlif yaşlı, müxtəlif kateqoriyalı insanlar yazır.

Xalqımızın, dövlətimizin koronavirusa qarşı mübarizə apardığı bir şəraitdə vətəndaşlarımız bölgələrdən və paytaxtdan Prezidentə yazdıqları məktublarda əsas hansı məsələlərə diqqət yetirirlər. Bu gün Azərbaycan dövlətinin apardığı daxili və xarici siyasətdəki hansı istiqamətlərə diqqət yetirirlər, qiymət verirlər?

Tərtər rayonunun Sarıcalı kəndindən Əsədov Elşən Şahin oğlu "Azərbaycan xalqına vaxtında etdiyiniz güzəştlər, aztəminatlı ailələrin sosial durumlarını yaxşılaşdırmağa doğru atdığınız addımlar, işsiz və işaxtaran şəxslərə birdəfəlik ödəmələrin verilməsinin 200 min nəfərdən 600 min nəfərə çatdırılması xalqımız üçün çox önəmli addımlardır", - deyə yazır.

O, həmçinin, məktubunda Prezidentin dövlət sərhədlərinin bağlanması ilə bağlı vaxtında verdiyi qərarın da vətəndaşlar tərəfindən müsbət qarşılandığını qeyd edir.

İsmayıllı rayonunun İvanovka kəndindən Prezidentə məktub ünvanlayan Ravçeyeva Tatyana İvanovna isə "Siz həmişə olduğu kimi, bu çətin dövrdə də xalqın yanındasınız, ona daim qayğı göstərirsiniz. Sizin düşüncə və əməlləriniz insanların həyatının qorunmasına, onların sağlamlığının müdafiəsinə, maddi vəziyyətlərinin yaxşılaşdırılmasına yönəldilib. Sizin koronavirusla mübarizə istiqamətində qəbul etdiyiniz tədbirlər qəlbinizin mərhəmətindən, sevginizin dərinliyindən, təfəkkürünüzün gücündən və müdrikliyindən xəbər verir" - deyə yazan məktub müəllifi bəlanın öhdəsindən birlikdə gələcəyimizi və birlikdə güclü olduğumuzu bildirir.

Masallı rayonundan Prezidentə məktub yazan Qarabağ qazisi Abdullayev Füzuli Orucəli oğlu

"Belə çətin günlərdə xalqımızın yanında olub, onun hər bir problemi ilə maraqlanıb, həlli istiqamətində tapşırıqlar verdiyinizə görə mən bir Qarabağ qazisi kimi Sizi alqışlayıram. Xüsusilə də koronavirusa qarşı mübarizədə vətəndaşlarımızın sağlamlığını hər şeydən vacib bilib məqsədəuyğun qərarlar verməyiniz bizi çox sevindirir" - deyə yazır.

Ucar rayonunun Boyat kəndinin sakini, şəhid ailəsinin üzvü Əliyev Şamil Fərman oğlu öz məktubunda ölkə başçısının pandemiya ilə mübarizə dövründə, belə ağır şəraitdə şəhid ailələrini, onların qayğı və problemlərini unutmadığını önə çəkir: "…Siz Azərbaycan vətəndaşlarının, eləcə də şəhid ailələrinin sağlamlığının qorunması istiqamətində qətiyyətli addımlar atır, mühüm qərarlar qəbul edirsiniz. İnanırıq ki, Sizin müdrikliyiniz sayəsində xalqımız tezliklə bu bəladan xilas olacaq".

Azərbaycan Respublikasının Xalq artisti, Bakı şəhəri, Binəqədi rayon sakini, 91 yaşlı görkəmli rəqs ustadı Cəlilova Roza İsmayıl qızı öz məktubunda ölkə başçısının rəhbərliyi ilə xalqımızın pandemiya dövründə nail olduğu milli birliyə, həmrəyliyə dəstək verir: "Birlik dirilikdir. Biz Sizin ətrafınızda sıx birləşərək böyük qüvvəyə çevriləcək və koronavirus pandemiyasının sınağından tezliklə alnıaçıq keçəcəyik. Mən 91 yaşımda buna ümid edirəm və inanıram".

Ağdaş rayonunun Qoşaqovaq kəndindən Bəhram Məmmədzadə isə Prezidentin göstərişilə ölkəmizdə tətbiq edilən karantin rejiminə görə ölkə başçısına təşəkkür edir: "…Ölkəmizdə xüsusi karantin rejimini tətbiq edərək Azərbaycan xalqını qoruduğunuz, qayğımıza qaldığınız üçün özümün və ailəmin adından Sizə təşəkkür edirəm. Sizinlə fəxr edirik. Hər şeyə görə çox sağ olun"

Lənkəran şəhər sakinləri İmanverdi Ağayev, Mahir Həsənov və Qoşqar Dadaşovun imzası ilə Prezidentə ünvanlanan məktubda onlar dövlət başçısının vətəndaşlara göstərdiyi diqqət və qayğını, eləcə də vətəndaşlarımızın ölkəmizə təxliyyə edilməsini yüksək dəyərləndirirlər: "…Sizə təşəkkür edirik ki, bizi bu bəladan qorumaq üçün nə lazımdırsa edirsiniz. Xüsusilə ölkəyə gələn vətəndaşlar üçün yaradılan şəraitə, karantində olan insanlara göstərilən yüksək tibbi xidmətə və müalicəyə görə Sizə minnətdarlığımızı çatdırırıq. Cənab Prezident, Sizin və Mehriban xanımın qayğıkeş, humanist münasibətiniz bizi çox ruhlandırır".



Gəncə şəhərindən Prezidentə məktub yazan Məmmədova Kəmalə Namiq qızı bildirir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri, burada ortaya qoyulan yeni yanaşmalar bütün dünyaya örnəkdir: "…Bu gün ölkəmiz pandemiya ilə mübarizədə dünyaya nümunədir. Əhalinin sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlər də vətəndaşların rifahını qoruyur.

Vaxtında görülən tədbirlərə görə Sizə bir daha təşəkkür edir, "çox sağ olun" deyirik".

Saatlı rayon sakini Əlizadə Pünhan Vahab oğlu isə məktubunda "koronavirus pandemiyası dünya ölkələrinə, o cümlədən, hegemon dövlətlərə müharibə elan edib, bütün ölkələrin iqtisadiyyatlarına güclü zərbə vurub. Qlobal böhrana baxmayaraq, Sizin tədbirli siyasətiniz və qətiyyətli mövqeyiniz sayəsində Azərbaycanda vəziyyət nəzarət altında saxlanır. Möhtərəm Prezident, əmin ola bilərsiniz ki, xalqımız Sizə inanır və yalnız Sizə güvənir" - deyə bildirir.

Zərdab rayonunun Ağabağı kəndindən Şıxlı Yasin Piri oğlunun məktubunda qeyd edilir ki, bütün dünya pandemiyanın əlində aciz qaldığı vaxtda Azərbaycan vətəndaşları əmin-arxayındırlar: "Dünyamız çətinliklə üzləşib. Bütün dünya ölkələri koronavirus pandemiyasının qarşısında çətin durumda qaldığı halda, Azərbaycan vətəndaşı heç nədən korluq çəkmədən rahat yaşayır. Sağlamlığımızı düşündüyünüzə, qayğımıza qaldığınıza görə Sizə təşəkkür edirik. Bir vətəndaş kimi, daim Sizi dəstəkləyir və Sizinlə qürur duyuruq".

Şamaxı rayonunun Sabir qəsəbəsindən Hacıyeva Şəfa Hacıverdi qızı Prezidentə yazdığı məktubda ölkə başçısının koronavirus pandemiyasının qarşısının alınması üçün həyata keçirdiyi qabaqlayıcı tədbirləri təqdir edir: "Ölkəmiz koronavirus ilə bağlı aparılan mübarizədə zamanında verilmiş qərarlarınız sayəsində ən inkişaf etmiş dövlətlərlə bir pillədə durur. Bu, dövlət rəhbərinin uzaqgörənliyinin nəticəsidir. Bizimlə bərabər ailəmizin, övladlarımızın rifahını düşündüyünüz üçün, bu çətin günlərdə virusun vurduğu ziyanları minimuma endirə bildiyiniz üçün Sizə ailəm və yaxınlarım adından dərin minnətdarlığımı bildirirəm".

Neftçala rayonunun Mürsəqulu kəndindən fərdi sahibkar Səmədov Heydər Əlisa oğlu Prezidentə yazır ki, ölkəmizdə yeni növ koronavirus (COVID-19) infeksiyasının genişlənməsinin qarşısının alınması məqsədilə təsdiq etdiyiniz müvafiq preventiv və profilaktik tədbirlər, əhalinin aztəminatlı təbəqəsinin sosial dayanıqlığının təmin edilməsi, o cümlədən, pandemiyadan əziyyət çəkən sahibkarlara maliyyə dəstəyi verilməsi, insanları sosial həmrəyliyə dəvət etməyiniz dövlət-vətəndaş birliyini əks etdirən əsas faktorlardandır. "Fərdi sahibkar, fermer olaraq Sizin apardığınız məqsədyönlü daxili və xarici siyasəti tam dəstəkləyir və Sizin ölkəmizin çətin dönəmində dayanmadan, yorulmadan apardığınız islahatları alqışlayıram. Siz Azərbaycanın inkişafını təmin edirsiniz. Sizin pandemiya şəraitində Azərbaycanı necə qurtardığınız bir tarixdir. Yeni növ koronavirusun böyük insan tələfatı ilə nəticələnməsinin qarşısını almaq Sizin düşünülmüş, qabaqlayıcı tədbirləriniz sayəsində mümkün olub. Fərdi sahibkar kimi sosial məsuliyyəti dərk edərək, Sizin bütün çağırışlarınızı tam şəkildə dəstəkləyirik" - deyə fərdi sahibkar qeyd edir.

Şəki rayonunun Qudula kəndindən Prezidentə yazan Nemət Əliyev ümid edir ki, Prezident İlham Əliyevin rəhbərliyilə tezliklə pandemiyadan xilas olacağıq. Bundan başqa, o, ölkə başçısının son günlər imzaladığı qərarları da yüksək qiymətləndirdiyini yazır: "...Koronavirus xəstəliyi vaxtı kənd təsərrüfatı məhsulları istehsalçılarının xərclərini qarşılamaq məqsədilə ehtiyat fondundan ayırdığınız vəsaitlərə, sadə kəndlilərin zəhmətinə verdiyiniz dəyərə görə Sizə öz minnətdarlığımızı bildiririk".

Balakən rayonunun Qullar kəndindən Şıxməmmədov İbrahim Şıxməmməd oğlu "bu çətin günlərdə - ölüm kabusunun insanların aldığı hər nəfəsdə dolaşarkən xalqla birlikdə olduğunuza, COVID-19 pandemiyasının ölkəmizdə qarşısının alınması üçün qabaqlayıcı tədbirlər gördüyünüzə görə Sizə minnətdarıq" - deyə yazır.

Bakı şəhəri, Xətai rayon sakini Cəfərova Zəminə Xasay qızı Prezidentə yazdığı məktubda qlobal pandemiyanın yayıldığı bir zamanda Prezident İlham Əliyevin rəhbərliyilə görülən qabaqlayıcı tədbirlərin uğurlu nəticələrindən bəhs edir: "Bu gün Siz bir daha sübut etdiniz ki, Azərbaycan xalqına xidmət edirsiniz. Ölkəmizdə COVID-19 infeksiyasına qarşı görülmüş bütün qabaqlayıcı tədbirlər insanlarımızın sağlamlığının qarantıdır. Sizin işsiz vətəndaşlara və sahibkarlara göstərdiyiniz maddi və mənəvi dəstək əsl rəhbər, dövlət başçısı qayğısının təzahürüdür".

Biləsuvar rayonundan müharibə veteranı, Qarabağ qazisi, müəllim Emin Əvəz oğlu Mehtiyev də, Bakı şəhəri, Nəsimi rayon sakini, 69 yaşlı təqaüdçü Qafarova Qunça Mustafa qızı da, Masallı rayonunun Hüseynhacılı kənd sakini, tələbə Cəfərli Şəhriyar Bəxtiyar oğlu da ölkə başçısına ünvanladıqları məktublarda onun pandemiya dövründə həyata keçirdiyi sosial layihələri, gördüyü bütün işləri təqdir etdiklərini, Prezidentin yürütdüyü siyasətə dəstək verdiklərini qeyd edirlər.

***İradə SARIYEVA***

**"Biz bütün enerji təsərrüfatımızı dövlət mülkiyyətinə qaytardıq. Əgər bunu etməsəydik, bu gün biz qaranlıq içində yaşayacaqdıq". Bu sözləri Prezident İlham Əliyev "Azərenerji" ASC-nin baş idarəetmə kompleksinin açılışında çıxış edərkən deyib.**

*"Bu baxımdan, ölkə başçısı sözügedən addımı atmaqla enerji sektorunu xilas etdi"*

# "Barmek" qovulmasaydı, enerji sektoru dövlətləşdirilməsəydi - Prezident tarixi faktlar açdı...

***Ruslan Atakişiyev:** "O zaman belə bir qərar verilməsəydi, enerji sistemi çox pis vəziyyətə düşərdi"*




Dövlət başçısı 2002-2006-ci illərdə Azərbaycanda fəaliyyət göstərmiş "Barmek" şirkətinin fəaliyyətinə də toxunub. Prezidentin sözlərinə görə, adıçəkilən şirkət pul qoymaq əvəzinə, bu sistemi bərbad vəziyyətə salıb: "Bizim müstəqilliyimizin hələ 30 yaşı tamam olmayıb. Biz müstəqil ölkə olanda enerji təsərrüfatımız bərbad vəziyyətdə idi. Ondan sonra daha da bərbad vəziyyətə düşdü. Biz o illəri xatırlayırıq. Burada bir "Barmek" şirkəti peyda olmuşdu, özü də qeyri-təmiz sxemlər əsasında, keçmiş məmurlarla sövdələşmə əsasında gəlib bizim Bakı şəhərinin bütün enerji təsərrüfatına sahib olub və pul qoymaq əvəzinə, bu sistemi bərbad vəziyyətə salıb, Azərbaycandan milyonlarla pul aparıb. Sonra da bu, azmış kimi, bizi hələ məhkəməyə vermək istəyirdi. Mənim göstərişimlə bu çirkin sövdələşməyə son qoyuldu, bu dələduz şirkət Azərbaycandan qovuldu və mənim sərəncamımla o vaxt "Azərişıq" Səhmdar Cəmiyyəti yaradıldı. Adını da mən qoymuşam, "Azərişıq". Biz bütün enerji təsərrüfatımızı dövlət mülkiyyətinə qaytardıq. Əgər bunu etməsəydik, bu gün biz qaranlıq içində yaşayacaqdıq və "Azərenerji"nin bütün əmlakı dağıdılacaqdı, necə ki, bu bina".

Görünən odur ki, ölkə başçısı məlum qərarları verməklə Azərbaycanın enerji sistemini xilas edib. Bütün bu deyilənlərin fonunda, Azərbaycanın o zaman enerji sektorunu dövlətləşdirməsi nə qədər doğru siyasət idi və bu olmasaydı, nə baş verərdi?

Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyevin sözlərinə görə, o vaxt ölkənin enerji sektorunun dövlətləşdirilməsi doğru qərar idi: "O zaman belə bir qərar verilməsəydi, enerji sistemi çox pis vəziyyət düşərdi. Bu baxımdan, ölkə başçısı sözügedən addımı atmaqla enerji sektorunu xilas etdi. Həmin dövrdə belə bir addımın atılmasını mövcud vəziyyət tələb edirdi. Enerji sektorunda yaşanan pozuntulara son qoymaq üçün belə bir qərar verildi.

Bunun sayəsində dövlət vəsaiti hesabına enerji infrastrukturu əsaslı şəkildə yeniləndi. Sözügedən sahəyə böyük həcmdə sərmayələr qoyuldu. Bu gün Azərbaycan nəinki özünü elektrik enerjisi ilə təmin edir, eyni zamanda, elektrik enerjisini digər ölkələrə ixrac edir. Dövlətin bu sahəyə diqqəti sayəsində ötən illər ərzində böyük işlər görülüb. Hesab edirəm ki, gələcəkdə enerjinin satışını özəl sektora vermək lazımdır. Beynəlxalq praktikada əsasən bu üsuldan istifadə edilir. Məsələn, Almaniyada bu işləri bələdiyyələrin nəzdində olan müəssisələr həyata keçirirlər. Hesab edirəm ki, gələcəkdə bizdə də buna bənzər sistemlər tətbiq oluna bilər".

**_Vidadi ORDAHALLI_**

**"Azərbaycana investisiya qoymaq istəyən istənilən şirkət öz təkliflərini versin və yeni stansiyalar tiksin, investisiya qoysun və bizimlə bərabər işləsin". Bunu Prezident İlham Əliyev Bakıda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışından sonra qurumun bir qrup əməkdaşı ilə görüşündə çıxışı zamanı deyib.**

*"...daha çox özəl sərmayənin bu sahəyə yönəlməsinə gətirib çıxaracaq"*

# Azərbaycanın enerji sektorunda xarici investorların iştirakı şəffaf şərtə bağlandı - Prezident sözü...

***Fuad İbrahimov:** "Enerji sektorunda şəffaflığın yaranmasında, sağlam rəqabətin formalaşmasında ən düzgün yol budur"*



Ölkə başçısının fikrincə, bəzi şirkətlərin mövcud stansiyalara marağı var: "Ancaq buna baxmaq lazımdır, bu, bizə lazımdır, yoxsa yox. Çünki mövcud stansiyalar hamısı işlək vəziyyətdədir, dövlət hesabına böyük investisiyalar qoyulub. Əgər hansısa xarici şirkət bizdən o stansiyaları daha yaxşı işlədə bilərsə, buyursun təklif versin, göstərsin ki, nədir bunun üstünlüyü, əgər bu, özəl əllərdə olarsa, baxarıq, əgər onlar doğrudan da daha səmərəli işləyəcəklərsə, işləsinlər. Ancaq xarici investorları mən, ilk növbədə, yeni stansiyalara yönəltmək istəyirəm. Gəlsinlər pul qoysunlar. Yoxsa, hazır vəziyyətdə gəlməyi hər kəs istəyər. Gəl pul qoy, istehsal et, ötür ümumi sistemə və öz biznesini genişləndir. Bax, mənim xarici şirkətlərə tövsiyəm bundan ibarətdir, o cümlədən, yerli şirkətlərə. Əminəm ki, bundan sonra dövlət-özəl sektor tərəfdaşlığı bu sahədə də mümkün olacaqdır".

Xarici şirkətlərin ölkənin enerji sektorunda iştirakına sözügedən şərtlər daxilində yanaşılması tamamilə düzgün siyasətdir. Ona görə ki, bu, ölkənin milli maraqlarına uyğundur. Necə deyərlər, enerji sektorumuzda xarici investisiya yeni və milli maraqlara uyğun şərtə bağlandı.

Maraqlıdır, bəs ekspertlər buna necə yanaşırlar?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, enerji sektorunda şəffaflığın yaranmasında, sağlam rəqabətin formalaşmasında ən düzgün yol budur: "Enerji sektorunda əsasən qapalı səhmdar sistemi olub. Artıq ölkə rəhbəri bu siyasəti dəyişirsə, bu tamamilə doğru addımdır. Açıq şəkildə bütün sərmayədarlara, o cümlədən, xarici investorlara şərait yaradır ki, gəlin enerji sektoruna sərmayə qoyun. Burada söhbət ondan getmir ki, hansısa tender elan edilsin və vəsait ayrılsın.

Xeyr. Xarici investorlar özü sərmayə qoyub enerji istehsal etmək istəyirlərsə, onda buyursunlar. Sərmayə qoyub enerji istehsalına başlasınlar və sonra mənfəət əldə etsinlər. Bu nöqteyi-nəzərdən məsələyə yanaşmaq tamamilə doğrudur. Ölkədə kifayət qədər investor var. Enerji sektorunda nə qədər çox şəffaflıq təmin olunsa, bu bir o qədər ümumi işin xeyrinə olacaq. Nəticədə rəqabət mühiti formalaşacaq və bu da, öz növbəsində, daha çox özəl sərmayənin bu sahəyə yönəlməsinə gətirib çıxaracaq. Nəzərə almaq lazımdır ki, Azərbaycan iqtisadiyyatı böyüyür, əhali ilbəil artır. Gələcəkdə enerjiyə tələbat daha da artacaq. O baxımdan bütün bunlara xüsusi önəm verilməlidir".

**_Vidadi ORDAHALLI_**

# Vilayət Eyvazov burada da optimal çıxış yolunu tapdı - məsuliyyətə cəlb edilmiş anaların azyaşlı övlad(lar)ı...

**Xəbər verildiyi kimi, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tutulmuş və ya həbs edilmiş qadının yanında olan üç yaşınadək uşaqla bağlı məhkəmə vəsatəti qaldırmasında dəyişikliyi nəzərdə tutan qərar imzalayıb.**

*"Uşaqlar qadının yaxınlarına, qohumları olmadıqda, sosial xidmət müəssisələrinə verilə bilər"*

***Aytəkin Kamranqızı:*** *"...cinayətkar qanunla cəzasını çəkəcək, onun övladları isə dövlət tərəfindən himayə ediləcək"*



Bununla bağlı "Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat"ın 11.4.9-cu bəndinə dəyişiklik edilib.

Həmin bənd tutulmuş və ya həbs edilmiş qadının yanında olan üç yaşınadək uşağına qayğı göstərilə bilməməsi ilə bağlıdır. Bu zaman qadın uşağın qanunla müəyyən edilmiş qaydada qohumlarına verilməsi, bu mümkün olmadıqda isə uşaqlar üçün sosial xidmət müəssisələrinə göndərilməsi barədə məhkəmə qarşısında vəsatət qaldıra bilər. Sənədin bundan əvvəlki variantında isə müvafiq hallar üçün üç yaşınadək uşaqların qohumlarına və uşaq müəssisələrinə verilməsi üçün vəsatət qaldırılması nəzərdə tuturdu.

Sosioloq Aytəkin Kamranqızı bildirdi ki, qanunvericiliyin bir sıra istiqamətlərində səmərəli islahatlar davam etdirilir: "Qanunvericiliyə dövrün tələbini nəzərə alan, müasir dünya ölkələrinin qanunlarına uyğun dəyişikliklər davam etdirilir.

Qanuna edilən dəyişikliyə əsasən, həbs edilmiş qadın uşağını qanunla müəyyən edilmiş qaydada qohumlarına verə bilər.

Uşaqlar qadının yaxınlarına, qohumları olmadıqda, sosial xidmət müəssisələrinə verilə bilər.

Sosial xidmət müəssisələri mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, əhaliyə sosial xidmət göstərilməsi sahəsində fəaliyyəti həyata keçirən hüquqi şəxslərdir".

**Həmsöhbətimiz hesab edir ki, məsuliyyətə cəlb edilmiş qadınların, anaların övladları kimsəsiz qalmır. Uşaqlar ya qadının qohumları tərəfindən himayə olunacaq, ya da dövlət tərəfindən. Bu dəyişiklik sayəsində cinayətkar qanunla cəzasını çəkəcək, onun övladları isə dövlət tərəfindən himayə ediləcək.**

*Günel CƏLİLOVA*

# Elektron KİV-də media etikası problemi - bəzilərinin əndazəni aşması tərbiyəsizliyə çevrilir...

**Media aləminə sürətlə daxil olan KİV nümunələrinin sırasında saytlar xüsusi çəkiyə malikdir. Onlara bəzən onlayn media da deyilir. Texnoloji imkanların verdiyi üstünlüklərə görə bu media nümunələrinin informasiyanın yayılması ilə bağlı operativliyi danılmazdır.**

***Azər Həsrət:*** *"Rəsmi məlumatı bu cür təqdim etmək yolverilməzdir"*




Ancaq bu üstünlüklərlə yanaşı, sözügedən media nümunələrində xəbərə yanaşma məsələsində peşəkarlığın aşağı, əksər hallarda isə diletant səviyyəsində olduğunu görürük. Xüsusən də məqalələrin işıqlandırılmasında seçilən başlıqların qərəzli və daha çox mövzu ilə həmahəng olmadığı üzə çıxır.

Məsələn, biz daha çox belə diletanlığa kimlərinsə işdən azad olunması ilə bağlı xəbər təqdimatlarında rast gəlirik. Hətta Prezident sərəncamı ilə işdən azad olunan vəzifə sahibləri ilə bağlı "işdən qovuldu", "ona yeri göstərildi", "qapının arxasında qaldı" kimi başlıqları da tez-tez görürük. Halbuki, sərəncamla tanış olanda şəxsin hansısa nöqsana görə işdən azad edildiyinə heç bir işarənin olmadığı ortaya çıxır. Belə təqdimatları media etikası baxımından necə qiymətləndirmək olar?

Media məsələləri üzrə ekspert Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə başlıqlarla xəbərin təqdim olunması qeyri-etikdir:"Birincisi, vəzifə əbədi deyil. Heç kim hansısa vəzifədə ömrü boyu oturmayacaq. Ölkənin başçısı hansısa məmuru vəzifəyə təyin də edə bilər, işdən çıxara da bilər. Adam bəlli bir dönəmdə işləyir, zaman keçəndən sonra yenilənmə zərurəti yaranır, onu işdən çıxarıb yenisi ilə əvəz edirlər. Normal prosesdir və dünyanın hər yerində belə olur. Həmin xəbərləri "qovuldu", "başını əzdilər", "qapı arxasında qoydular" kimi başlıqlarla təqdim etmək media etikası baxımından doğru deyil. Bunlar küçə jarqonları sayılır. Əgər ölkə başçısı sərəncam verib kimisə işdən azad edirsə, bunun adı "vəzifədən azad edildi" olmalıdır. Başlıq da belə qoyula bilər: "filan məmur tutduğu vəzifədən azad edildi". Əgər hansısa məmurun azad edilməsi səbəbi rəsmi xəbərdə onun cinayət etdiyi, işində nöqsanlara yol verdiyi kimi təqdim olunursa, onda jurnalistlər xəbərə öz şərhlərini əlavə edə bilərlər. Prezidentin sərəncamında belə məqamlar yoxdursa, media artıq-əksik sözlərə yer verməməlidir. Mənim sözüm yuxarıda qeyd etdiyiniz təqdimatla xəbər yayanlaradı. Bilsinlər ki, o cür başlıqlarla xəbər təqdimatı ilə yanlışlığa yol verirlər. Ola bilər ki, təhqir elementi də olmasın, sadəcə olaraq, etik deyil. Özünü bu cür ifadə edənlərin səviyyə problemi var. Bunda işdən çıxarılan adamla bağlı heç bir problem olmur. Problem bu cür başlıqla xəbər verənlərdədi. Mən istəməzdim ki, bizim jurnalistlərimiz belə cılız yanaşma sərgiləsinlər. Adam işdən azad olunubsa, xəbəri elə o adla da vermək lazımdır. Səbəb izah olursa, onu da xəbərin gözünə qatmaq olar. İşdən çıxarılan adam haqqında cəmiyyətin nə düşündüyü barədə jurnalistlər istədikləri qədər material hazırlaya bilərlər. Bu, şəxsi xarakterizə etmək baxımından həm müsbət, həm də mənfi xarakterli ola bilər. Rəsmi məlumatı bu cür təqdim etmək isə yolverilməzdir. İstərdim ki, redaktorlar məsələyə həssas yanaşsınlar".

*Məhəmmədəli QƏRİBLİ*

# "Evronyus"un "Azərbaycan ədalətsizliyi" - dünya Ermənistandakı tənəzzüldən danışır, "Evronyus" isə...

## İsmayıl Tanrıverdi: "...informasiya yalan üzərində qurulub"

**Xarici ölkələrdə fəaliyyət göstərən bəzi KİV-in Azərbaycana qarşı qərəz nümayiş etdirdiyi məlumdur. Ermənipərəst mövqedən çıxış edən bu KİV-in sırasında "Evronyus" telekanalı da var. Dəfələrlə ölkəmizə qarşı xoşagəlməz süjetlər yayımlayan "Evronyus" bu dəfə bir qədər də irəli gedib.**

"Evronyus" telekanalının Azərbaycana qarşı qərəzli mövqe sərgilədiyi haqqında "Baku TV" məlumat yayıb. Onun verdiyi xəbərə görə, Ermənistanın koronavirusla mübarizəsindən bəhs edən süjetdə 2018-ci ildə bu ölkədə hakimiyyət dəyişikliyindən sonra görünməmiş bir yüksəliş olduğu, iqtisadi artım baxımından Azərbaycanı və Gürcüstanı qabaqladığı, yoxsulluğun ən aşağı səviyyəyə endiyi bildirilib.

Məlum olduğu kimi, kanalın Ermənistanda "iqtisadi artımı" qaldırıb dağ başına qoyması gülüncdür. Çünki Ermənistan Cənubi Qafqazın ən acınacaqlı vəziyyətin hökm sürdüyü respublikasıdır.

Ekspertlər qeyd edirlər ki, Ermənistanda iqtisadi vəziyyət heç də göstərildiyi kimi deyil. Onsuz da vəziyyəti ağır olan Ermənistanda karantin rejiminin tətbiqi ölkə iqtisadiyyatını çətin hala salıb. Bir çox sektorda istehsalat 90 faiz azalıb.

Xatırladaq ki, martın 16-dan karantin rejimi tətbiq edilən Ermənistanda məhdudiyyətlər mayın 14-dək davam edəcək. Rəsmi İrəvan isə məhdudlaşdırıcı tədbirləri tədricən yüngülləşdirəcəyini vəd edir.

BDU-nun Tarix fakültəsinin Erməni araşdırmaları elmi-tədqiqat və tədris mərkəzinin böyük elmi işçisi, ermənişünas alim İsmayıl Tanrıverdi "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistanda seçkilərdən sonra heç bir müsbət dəyişiklik baş verməyib, əksinə, Paşinyan hakimiyyətə gələndən sonra bu ölkədə vəziyyət günü-gündən daha da pisləşib. "Hesab edirəm ki, "Evronyus"un Ermənistanda seçkilərdən sonra müsbət dəyişikliklər baş verdiyi ilə bağlı yaydığı süjet, tamaşaçılara çatdırdığı informasiya yalan üzərində qurulub. Çünki bu, reallığı əks etdirmir. Bütün dünya bilir ki, 2018-ci il seçkilərindən sonra erməni cəmiyyəti, sözün həqiqi mənasında, dilənçi vəziyyətinə düşüb. Ermənistan iqtisadi cəhətdən Azərbaycandan və Gürcüstandan üstün deyil, qat-qat aşağıdır. Ermənistanın iqtisadiyyatı yoxdur ki, orada artım baş versin. Yoxsulluq səviyyəsinə gəlincə, bu ölkədə yoxsulluq səviyyəsi aşağı düşməyib, əksinə, artıb. Bilirsiniz ki, Paşinyanın nüfuzu həddindən çox aşağıdır və hətta srağagün erməni saytları Paşinyanı sərt tənqid etmişdi. Erməni mətbuatı yazıb ki, Paşinyan, utan, Ermənistanda koronavirusa yoluxanların sayı Gürcüstanla Azərbaycanda bu virusa yoluxanların toplam sayına bərabərdir. Yəni Gürcüstan və Azərbaycanda virusa yoluxan insanları bir yerə toplasaq, 3 milyon əhalisi olan Ermənistanda bu virusa yoluxanların sayı onlara bərabər gəlir. Azərbaycanla Gürcüstanın ikisinin bir yerdə 14 milyon əhalisi varsa, Ermənistanda əhalinin sayı heç 3 milyon deyil. Rəsmi statistikada 3 milyon göstərilsə də, oradan köçənlərin sayı da çoxdur".

Paşinyanın koronavirusla mübarizədə heç bir planının olmamasının Ermənistan əhalisinin dayanmadan virusa yoluxmasına səbəb olduğunu deyən İ.Tanrıverdi hesab edir ki, Paşinyan erməni xalqını virusdan xilas etmək üçün heç bir iş görmür, yalnız, ənənəsinə sadiq qalaraq, ianə dilənir: "Erməni mediası Ermənistanda baş verən hakimiyyət dəyişikliyinin Ermənistana gətirdiyi uğursuzluqlar barədə kifayət qədər yazır. Bu gün "Evronyus" Paşinyanın Ermənistanı koronavirusdan xilas etmək üçün tədbir görmək əvəzinə, ianə diləndiyini niyə qeyd etmir? Bu faktları beynəlxalq ictimaiyyətə çatdırsaydı, daha obyektiv görünmüş olardı. Erməni mediası ingilis və rus dillərində yaydıqları məlumatları Ermənistandakı "inkişafı" təbliğ etmək üzərində qururlar. "Evronyus" da bu məlumatlara aldanıb və onu tirajlayıb. Erməni dilində olan məlumatlar isə Ermənistanın, Paşinyan rejiminin tamamilə iç üzünü açıb göstərir.

Paşinyan Ermənistan əhalisindən koronavirusa görə nümunələr götürülməsinə yardım etmələri üçün Avropa ölkələrinə müraciət edib. O deyib ki, bizim test alıb əhaliyə tətbiq etmək imkanımız yoxdur, Avropa ölkələri bizə kömək etsinlər. Paşinyanın rəhbərliyi ilə ianə hesabına yaşayan Ermənistan öz "iqtisadi göstəriciləri" ilə güclü iqtisadiyyata malik olan Azərbaycanı necə üstələyə bilər? Yeri gəlmişkən deyim ki, bu gün Ermənistan dünyanın müxtəlif ölkələrindən göndərilən ianələr hesabına mövcudluğunu qoruya bilir. Bu ölkənin əhalisi ancaq ianə hesabına yaşayır. Çindən, ABŞ-dan, Fransadan və digər Avropa ölkələrindən bu ölkəyə ianələr edilib. Pandemiya dövründə Ermənistana koronavirusla mübarizə aparması üçün Avropa Birliyindən 51 milyon dollar yardım edildi, Çindən iki təyyarə yardım gəldi.

Ermənilərə maska, test, həkimlərin istifadə etdiyi geyimlər yardım edilir. Azərbaycanda isə vəziyyət fərqlidir. Pandemiya başladığı gündən Azərbaycan özü müxtəlif dövlətlərə yardımlar göstərir, maliyyə vəsaiti ayırır, bir çox halda testləri və digər vəsaitləri öz maliyyəsi hesabına alır. Bundan başqa, Azərbaycan dövlətinin etdiyi yardımlara qarşılıq olaraq, bizim ölkəmizə də müxtəlif dövlətlər yardımlar edirlər. Bu da pandemiya dövründə yardımlaşma, əməkdaşlıq anlamına gəlir.

Bir müddət əvvəl ermənilər 50 ədəd süni tənəffüs cihazını kreditlə aldıqlarını açıqlayıblar. Sonra da ermənilər özləri deyirlər ki, bunun adı kredit olsa da, sonda biz onu hədiyyə kimi qəbul edəcəyik".




"Evronyus" Paşinyanın Ermənistanı koronavirusdan xilas etmək üçün tədbir görmək əvəzinə, ianə diləndiyini niyə qeyd etmir?"

***İradə SARIYEVA***

# Paşinyanın dünya üçün "demokratiya oyununu" ifşa edən yeni fakt - İTV-nin sədri niyə istefa verdi...

**Ermənistanın İctimai Televiziya kanalında baş nazir Nikol Paşinyanın məlum videosundan sonra istefalar davam edir. Erməni mətbuatının verdiyi xəbərə görə, daha əvvəl kanalın icraçı direktoru Marqarita Qriqoryan vəzifəsini tərk edib. Televiziyanın yayım işinə cavabdeh olan Vardan Hakobyan da işdən uzaqlaşdırılıb.**



## *Əhməd Şahidov: "Son hadisələr göstərir ki, Paşinyan mediaya qarşı da avtoritar yanaşma ortaya qoyur"*

Televiziya və Radio üzrə Milli Komissiyanın iclasından sonra məlum olub ki, İctimai Televiziya və Radio şirkətinin İdarə Heyətinin sədri Ara Şirinyanın, proqram direktoru Tereza Kərimyan, İctimaiyyətlə əlaqələr və xarici əlaqələr üzrə direktor Tiqran Danielyan, İnsan resursları departamentinin direktoru Nazeli Nikoqosyan və xəbərlər və analitik proqramlar direktoru Petros Kazaryan da istefa ərizəsi yazıb. İstefalara səbəb baş nazir Nikol Paşinyanın vətəndaşlara etdiyi cümə müraciəti ilə bağlı videogörüntülərin yayılması olub. Belə ki, onun koronavirus pandemiyasının sosial-iqtisadi təsirləri barədə xalqa birbaşa efirdə müraciətindən əvvəl lentə alınmış texniki məşqdə çəkilən kadrlardan düzəldilmiş video yayılıb. Kadrlarda Paşinyanın öskürdüyü, bu zaman əli ilə ağzını tutmadığı, su şüşəsini başına çəkdiyi, dərman atdığı görünür. Videonun "müəllif"ləri bəlli olmasa da, sosial şəbəkə istifadəçiləri bildiriblər ki, kadrlar sadəcə "sızdırılıb".

Qeyd edək ki, Ermənistanda insan haqlarının pis vəziyyətdə olması ilə bağlı hətta dünyanın tanınmış hüquq müdafiə təşkilatları həyəcan təbili çalır. Bu günlərdə yayılan "Amnesty International" təşkilatının hesabatında Ermənistanda hakimiyyətin məhkəmə sisteminə ciddi təzyiqlər etdiyi öz əksini tapıb. Ancaq aydın şəkildə görünür ki, Ermənistanda insan haqları və demokratik təsisatlara hücum yalnız məhkəmə-hüquq sistemini əhatə etmir. Paşinyan öz siyasi rəqiblərini bütün vasitələri tətbiq etməklə sıradan çıxarır. Hətta pandemiyadan istifadə edərək, xarici ölkələrdə olan bəzi arzuolunmaz səfirləri geri çağırıb. Konstitusiya Məhkəməsi ilə bağlı xüsusi referendum keçirir ki, hakimləri asanlıqla istefaya göndərə bilsin. İctimai Televiziya ilə bağlı yaşananlar isə Paşinyanın medianı da ciddi hədəfə aldığını üzə çıxarır. Belə antidemokratik addımlar, Paşinyanın demokratiya imitasiyasını ifşa edən faktlar beynəlxalq hesabatlarda niyə tam əks edilmir?

Hüquq müdafiəçisi Əhməd Şahidov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, beynəlxalq təşkilatlar Ermənistanla bağlı neqativlikləri tam əks etdirmir:

"Bu yaxınlarda dərc edilən "Amnesty International"ın hesabatında biz bunun bir daha şahidi olduq. İnandırım sizi, məhz Ermənistanla bağlı hesabatı oxuduqdan sonra bir daha tam əmin oldum ki, bu təşkilatın başbilənləri ya ermənidir, ya da erməni lobbisinin əlaltıları. Çünki Ermənistanla bağlı hesabatında "Amnesty International" o qədər neytral fikirlər səsləndirir ki, Ermənistanı yaxından tanımayan adamın bu ölkəyə simpatiya bəsləməkdən başqa seçimi qalmır. Sanki dünyanın ən "demokratik" və "humanist" ölkəsi elə Ermənistanmış. Nədənsə, bu təşkilat Ermənistanda müxalif siyasi partiya liderinin türmədə aclıq aksiyası keçirərək dünyasını dəyişməsindən yazmır. Azərbaycanın işğal olunmuş torpaqlarından, bu torpaqlarda dağıdılmış məscid və tarixi abidələrdən, 6 ildir Şuşa həbsxanasında qanunsuz girov saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyevdən, beynəlxalq qanunvericiliyi tapdalayaraq "Qarabağ Ermənistandır!" deyən Paşinyanın şovinist çağırışlarından, paytaxt İrəvanın mərkəzində ucaldılan faşist heykəlindən və bu kimi digər məqamlardan danışmır bu insan haqları təşkilatı.

Amma Azərbaycana gələndə hər şeyi görür. Daha doğrusu, hər şeyi əyri görür. Ermənistanda demokratiyanın bütün dəyərlərinə hakimiyyətin basqısı var. İnsan haqları ilə bağlı vəziyyət gərgindir. Son hadisələr göstərir ki, Paşinyan mediaya qarşı da avtoritar yanaşma ortaya qoyur. Onun barəsində hansısa materialın efirə getməsi bütün bir televizya kanalının istefası ilə nəticələnib. Bu faktlar bir daha sübut edir ki, Ermənistanda demokratiyadan əsər-əlamət yoxdur".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanda yeni anti-Putin dalğası - korrupsioner, Rusiya dağılacaq, SSRİ bərpa olunur...

**Erməni mətbuatında yenidən anti-Putin kampaniyası başlayıb. Bir neçə gün əvvəl Putin koronavirus xəstəliyini nəzərə alaraq, Qələbənin 75 illiyi ilə əlaqədar paradı təxirə salıb. Erməni mediası isə yazır ki, koronavirus Putini "məğlub etdi".**



## *Əli Orucov: "Son vaxtlar Ermənistanda getdikcə artan anti-Rusiya və anti-Putin əhval-ruhiyyəsi bir sıra məqamlardan xəbər verir"*

Bu, azmış kimi, erməni saytı Rusiya Prezidentini "korrupsioner" və "xəstə" adlandırıb: "Əslində, koronavirus Putini "məğlub etdi", onun üçün Qələbənin 75 illiyi münasibətilə keçirilən şənliklər və parad ən çətin geosiyasi vəziyyət fonunda Rusiyada hakimiyyət məsələsinin həll etmək üçün ideoloji kampaniyanın əsas hərəkətinə çevrilməli idi. Rusiya Prezidenti ilə cəmiyyət arasındakı təmasların əsas vasitəsi həm cari, həm də keçmiş müharibələrin hərbi-vətənpərvərlik patologiyası olaraq qalır".

Bununla belə, qeyd olunub ki, ümumiyyətlə, Moskva və bir sıra şəhərlər istisna olmaqla, Rusiyanın güclü bir səhiyyə sistemi yoxdur: "Rusiya Prezidenti isə artıq koronavirusun bölgələrə getdiyini elan edib. Bütün bunlar Rusiyada yüksək neft qiymətlərinə istinad edən dövlət idarəçiliyi, infrastruktur və iqtisadiyyat modernləşmədən kənarda qaldıqda korrupsiya və mənimsəmənin nəticəsidir".

Digər tərəfdən, erməni mediası yazır ki, Rusiya dağılmaq təhlükəsi ilə üzləşdiyi üçün postsovet respublikaları ilə daha yaxın "inteqrasiyaya" hazırlaşır. İddia olunur ki, aprelin 20-də Şimali Osetiyanın paytaxtı Vladiqafqazda keçirilən mitinq ölkədə sosial partlayışın olacağından xəbər verir: "Belə vəziyyətdə inteqrasiya indi daha çətin görünür. Rusiya neftin qiymətinin aşağı düşməsi səbəbindən iqtisadi böhran vəziyyətinə düşdü, əlavə olaraq əlləri sanksiya və beynəlxalq təcridlə bağlandı. Lakin bu şəraitdə Rusiya rəhbərliyi gözlənilməz addımlar ata bilər və Ermənistan hazırlıq görməlidir, çünki koronavirusdan əvvəl "inteqrasiya" böhran içində idi. Son bir neçə onillikdə Ermənistan erməni aktivlərinin və infrastrukturunun böyük hissəsini Rusiyaya təhvil verdi. İndi müxtəlif sahələrdə daimi böhranlara səbəb olur. Ermənistanın milli aviasiyası yoxdur, dəmir yolu Rusiya tərəfindən idarə olunur, qaz Rusiya tərəfindən, demək olar ki, güclə və bağlanmış şərtlərlə verilir, telekommunikasiya sahəsində iki Rusiya şirkəti fəaliyyət göstərir. Çox tezliklə yarana biləcək bir çağırışa cavab olaraq Ermənistan hökuməti hansı vektoru seçəcək? Bəlkə də bu, "SSRİnin dirçəlişi" adlandırılmayacaq, çünki Putin postsovet xalqlarının bundan "qorxduğunu" anladı. Ancaq Moskvanın Ermənistanı koloniya kimi idarə etmək cəhdlərindən əl çəkməməsi şübhəsizdir. Xüsusən də Ermənistan sərhədləri Rusiya sərhədçiləri tərəfindən qorunur və Gümrüdəki hərbi bazası pulsuz yerləşdirilib. Moskva artıq hərəkət edir: Rusiyada yaşayan ermənilər bir silah kimi Kreml tərəfindən Ermənistana və digər ölkələrə qarşı çevrilir. Rusiya postsovet ölkələrinin vətəndaşlarına Rusiya pasportlarının təklif edir ki, sonradan "qoruyub saxlaya bilsin".

### *"...ermənilər başqa hami axtarırlar"*

Göründüyü kimi, erməni mediası Rusiya ilə bağlı çox bədbin və ziddiyyətli proqnozlarla çıxış edir. Bütün bunlarda da bu və ya digər formada Putin ittiham edilir.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, son vaxtlar Ermənistanda getdikcə artan anti-Rusiya və anti-Putin əhval-ruhiyyəsi bir sıra məqamlardan xəbər verir: "Ermənilər düşünürlər ki, artıq Rusiya erası bitmək üzrədir və Moskvanı əvəzləmək lazımdır. Onsuz da Rusiyadan alacaqlarını alıblar. Neftin qiymətinin kəskin ucuzlaşması fonunda ermənilərə daha güclü himayədar və dayaq lazımdır. Rusiyanın dövlət kimi ciddi təhlükələrlə üzləşəcəyini düşünən ermənilər başqa hami axtarırlar. Ona görə də, lakonik desək, Putini və Rusiyanı aşağılamaqla, onu, yeri gəldi-gəlmədi, tənqid etməklə özlərini sanki hansısa beynəlxalq güclərə təqdim edirlər. Yeni anti-Rusiya ritorikası ilə Qərbin diqqətini çəkmək istəyirlər.

**Doğrudur, Rusiya çox dərin böhran ərəfəsindədir. Lakin bu böhran düşünmürəm ki, Rusiya Federasiyasının parçalanmasınadək gedib çıxacaq. Başı öz problemlərinə qarışan Rusiya Ermənistana əvvəlki kimi diqqət və dəstək göstərə bilməyəcək. Ermənilər adətən hansısa güclü bir himayədara öyrəşiblər. Böyük dövlətlərin kölgəsi altında özlərini rahat hiss etməklə kifayətlənməyib, məkrli niyyətlərini və işğalçılıq siyasətlərini yürüdüblər. Moskva da ermənilərin xarakterini yaxşı bildiyindən, onların ipini buraxmaz".**

***Vidadi ORDAHALLI***

# Dağlıq Qarabağ münaqişəsi tarixində həmsədrlərin ilk videokonfransına erməni təxribatı - Mnatsakanyan qondarma "DQR"də qanunsuz seçkidən niyə söz açıb...

***Rəşad Bayramov:** "ATƏT-in Minsk Qrupu ona verilmiş mandatdan kənara çıxıb"*

**Aprelin 20-də Ermənistanın xarici işlər naziri Mnaçakanyanla ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya), Endryu Şefer (ABŞ), Stefan Viskonti (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik arasında videokonfrans formatında görüşü olub.**

Erməni KİV-nin verdiyi məlumata görə, görüş zamanı tərəflər Dağlıq Qarabağ münaqişəsini müzakirə ediblər. Qeyd olunur ki, Mnatsakanyan bugünlərdə qondarma "DQR"də keçirilən "seçkilər" və onun nəticələri ilə bağlı ətraflı məlumat verib. Görüşdə tərəflər hazırda COVID-19 pandemiyası ilə mübarizə aparıldığı bir vaxtda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin irəli aparılması yollarını müzakirə edib. Mövcud vəziyyətin sülh danışıqlarının davam etdirilməsinə mane olmamasının vacibliyi vurğulanıb. Tərəflər aprelin 21-də Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrləri və fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin vasitəçiliyi ilə görüşünün keçirilməsini razılaşdırıblar.

Bu məlumatda diqqət çəkən məqam budur ki, münaqişənin həllində vasitəçilik missiyasını üzərinə götürən tərəflər Mnatsakanyanın "DQR"-də baş tutan qanunsuz "seçkilərlə" bağlı nağıllarına qulaq asıblar. Halbuki, Mnatsakyanın Azərbaycanın ərazisində nə seçki keçirməyə, nə də onunla bağlı hesabat verməyə haqqı var. Həmsədrlərin bu addımını necə dəyərləndirə bilərik?

Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Rəşad Bayramov "Bakı-Xəbər"ə bildirdi ki, ATƏT vasitəçilərinin iştirakı ilə keçirilən videokonfransda bütün beynəlxalq qurumlar və dövlətlər tərəfindən birmənalı olaraq Azərbaycanın tərkib hissəsi kimi qəbul edilən Dağlıq Qarabağda "seçkilərin" keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılması Azərbaycanın daxili işlərinə müdaxilə kimi qiymətləndirilməlidir: "Təəssüf ki, bu cür müdaxilə vasitəçilik missiyasına cavabdeh qurumlar tərəfindən ilk dəfə baş vermir. BMT tərəfindən verilmiş mandata uyğun olaraq missiyası işğal olunmuş ərazilərin hərbi birləşmələrdən qeyd-şərtsiz azad olunması istiqamətində danışıqlar aparmaq olan ATƏT-in Minsk Qrupu bunun əvəzində Dağlıq Qarabağın statusu və "seçki" ilə bağlı da danışıqlar həyata keçirməklə



ona verilmiş mandatdan kənara çıxıb. ATƏT-in Minsk Qrupu həmsədrləri Mnatsakanyanın Dağlıq Qarabağdakı "seçkilərlə" bağlı məruzəsinə qulaq asmaq əvəzinə "seçkilər"in keçirilməsini beynəlxalq hüququn kobud şəkildə pozulması və danışıqlar prosesində qeyri-konstruktiv addım kimi qiymətləndirməli idi. Ümumiyyətlə, münaqişənin çözülməsinin beynəlxalq təşkilatların, əsasən də ATƏT-in Minsk Qrupunun öhdəsinə buraxılması yanlış siyasət olmaqla yanaşı, problemin xalqın iradəsi ilə həllində də maneçilik yaradır.

Bir daha qeyd edirəm ki, Minsk Qrupu münaqişənin nizamlanmasında vasitəçi bir qurum funksiyasını yerinə yetirməli olduğu halda, aparılan səhv siyasət nəticəsində daha geniş səlahiyyətlər əldə edib. Aparılan danışıqların qeyri-səmərəliliyini, Qarabağın statusu ilə bağlı Ermənistanın sərgilədiyi qeyri-konstruktivliyi nəzərə alaraq bu yöndə danışıqların heç bir nəticə verməyəcəyini tam qətiyyətlə demək mümkündür.

Bu səbəbdən də ATƏT çərçivəsində, eləcə də bu istiqamətdə aparılan danışıqlar dayandırılmalı, münaqişənin nizamlanmasında hərbi-siyasi yol yeganə yol kimi qəbul edilməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

# Bəzi deputatlardan seçici narazılığı problemi yenidən baş qaldırır - heç olmasa virtual görüşlər keçirmək olmazmı...

***Elşən Həsənov:** "Dövlət başçıları videokonfrans formatında çox mühüm mövzuları müzakirə edirlərsə, deputatlar da seçiciləri ilə bu formatda görüşə bilərlər"*

**Ölkəmizdə koronavirusla bağlı xüsusi karantin rejimi qüvvədədir. Bu, ölkəmizdə keçirilən parlament seçkilərindən dərhal sonraya təsadüf etdiyindən, vətəndaşlarımızın yeni seçilmiş deputatları sınaması baxımından da həssas məqam sayıla bilər.**



Çünki bu çətin zamanda ölkəmizdə həm də bir yardımlaşma hərəkatına start verildi. İmkanlı adamlar ehtiyacı olanlara gücləri çatan köməklikləri etdilər. Belə məqamda millət vəkillərinin də fəal olmaları gərəkir. İnsafən demək lazımdır ki, bəzi millət vəkillərinin bu yöndə fəaliyyəti nəzərə çarpdı. Ancaq sosial şəbəkələrdə gedən müzakirələrdən görürük ki, vətəndaşların heç də hamısı öz deputatlarından razı deyillər. Bu qəbildən olan insanlar qeyd edirlər ki, yeni seçilmiş deputatlarını görə bilmirlər: "Müraciət edəndə isə pandemiayanı bəhanə edib deyir ki, belə şəraitdə vətəndaşlarla görüş keçirmək olmaz". Bəs indiki halda deputatlar seçiçiləri ilə görüş problemini virtual qaydada keçirilən toplantılarla kompensasiya edə bilərmi? Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, millət vəkilləri məhz belə məqamda xalqın yanında olmalı, onların probleminin həllinə kömək göstərməlidirlər:

"Seçkilər yeni bitib. Əminəm ki, bütün deputatlar seçiləndə xalqa vədlər veriblər. Həmin vədlərin ən aparıcı tezisi bu olub ki, seçicilərə bütün bacardıqları dəstəyi verəcəklər. Buyursunlar, indi bunu etmək üçün əsl meydan var. Mən demirəm ki, deputat cibindən bütün seçicilərinə yardım paylasın. Onlar ictimai statuslarından istifadə edib, prosesə çoxlu sayda adamı cəlb edə bilərlər. Biz görürük ki, heç kimin tanımadığı bir adam yardımlaşma ilə bağlı çağırış edir, neçə nəfər ona dəstək verir. Nəticədə bir neçə adama yardımlar olunur. İndi təsəvvür edin ki, bunu deputat statusunda olan adam eləsə nə olar. Deputatlar görüş keçirməyin mümkünsüzlüyünü bəhanə etməməlidirlər. Texnoloji imkanlar bünün üçün alternativ yol göstərir. Dövlət başçıları videokonfrans formatında çox mühüm mövzuları müzakirə edirlərsə, deputatlar da seçiciləri ilə bu formatda görüşə bilərlər. Müxtəlif kəndlərdən, qəsəbələrdən bir neçə adamı qoşmaqla belə onlayn formatında görüş keçirib onların problemini dinləmək olar. Millət vəkilləri bu metoddan geniş istifadə etməlidir. Hətta şəffaflığın daha çox olması üçün belə görüşləri sosial şəbəkələr üzərindən də edə bilərlər ki, kənardan da izlənilsin. Bunun həm də təbliğat baxımından böyük üstünlüyü olar".

Partiya sədrinin sözlərinə görə, hazırda bu prosesdə iştirak etmək üçün əhalinin böyük əksəriyyətinin imkanları var:"Təbii ki, hər bir kənddən bir nəfəri seçib qoşa bilərlər. Həmin adam da kəndin ümumi problemini deputatın nəzərinə çatdırar. Hamının əlində telefonu, evində interneti var. Yetər ki, istək olsun".

***Məhəmmədəli QƏRİBLLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan Ordusunda düşməni lərzəyə salacaq yeni hərbi texnikalar - sırada Fransanın "Thales İnternational"ı, İtaliyanın "Leonardo"su var...

**Hərb sahəsində Azərbaycanın xüsusi diqqət mərkəzində saxladığı əsas məqamlardan biri də ordusunu müxtəlif ölkələrdən alınan hərbi texnika ilə təmin etməkdir. Bu xüsusda artıq faktdır ki, son illərdə Qərb şirkətləri də Azərbaycanla əməkdaşlığa xüsusi diqqət yetirməyə başlayıb.**

Ümumiyyətlə, Azərbaycan son illər Qərb ölkələrindən, xüsusilə də NATO, Avropa Birliyinə daxil olan dövlətlərdən yeni silah və hərbi texnikaların satınalınmasını həyata keçirir. Eləcə də artıq heç kimə sirr deyil ki, bu gün Avropanın bir çox ölkələri Azərbaycana açıq şəkildə silah satmağa hazır olduqlarını bəyan edirlər. Bu ölkələrdən Fransa son illərdə xüsusilə seçilir.

Məsələ burasındadır ki, erməni lobbisinin bütün cəhdlərinə rəğmən, Fransa şirkətlərinin Azərbaycanla bir çox sahələrdə hərbi əməkdaşlığı genişlənir. Məsələn, bu ölkəyə məxsus "MBDA Systems" şirkətinin raket texnologiyaları, hava hücumundan müdafiə sistemləri sahəsində, "CNİM" mühəndis texnikaları, "Thales" radiolokasiya sistemləri, optik cihazlar, peyklər, kəşfiyyat avadanlıqları, "Proengin" şirkəti NBC kəşfiyyat avadanlıqlarını Azərbaycana təklif edir. Dəniz sistemləri sahəsində "Naval Group" şirkəti Azərbaycana OPV-90 gəmilərini, "ECA Robotics" insansız robot vasitələrini təklif edib. "Nexter Systems" şirkəti ilə MSN arasında bəzi məhsulların birgə istehsalının yaradılması, "Airbus Defense" şirkəti ilə yeni kəşfiyyat peyklərinin hazırlanması və orbitə buraxılması ilə bağlı ölkəmizlə əməkdaşlıqda maraqlı tərəflərdir.

Məhz belə bir vaxtda bəlli olub ki, Fransanın "Thales İnternational" şirkəti Azərbaycanla mülki və hərbi aviasiya sahəsində yeni layihələri nəzərdən keçirir. "Thales"in Azərbaycan nümayəndəliyinin direktoru Mehmet Şahan bu xüsusda "azeridefence" jurnalına açıqlamasında yeni maraqlı açıqlamalar verib. Mehmet Şahanın sözlərinə görə, "Hava hərəkətinin idarə olunması sahəsində "Thales"in Azərbaycanda əsas böyük müştərisi "Azərbaycan Hava Yolları" (AZAL) aviadaşıyıcı şirkətidir: "Bu sahədə "Thales"in AZAL şirkəti ilə indiyədək bir neçə müqaviləsi olub. Prezident İlham Əliyevin 2019-cu ilin iyulunda Fransaya səfəri çərçivəsində AZAL ilə "Thales" arasında növbəti müqavilə imzalanıb. "Thales" Azərbaycanda daha aktiv fəaliyyət göstərmək, bura yeni texnologiyalar, yeni ideyalar gətirmək fikrindədir". Şirkət rəhbərinin sözlərinə görə, Parisdə imzalanmış müqavilələr çərçivəsində Azərbaycan tərəfi ilə birlikdə onların mövcud avadanlıqlarına texniki dəstək göstərilməsi və gələcəkdə lazım olan avadanlıqların Azərbaycanda yığımı nəzərdə tutulur. Müqavilə çərçivəsində Fransada istehsal olunan məhsulların, o cümlədən mülki təyinatlı radarların komponentlər şəklində Azərbaycana gətirilərək Bakıda yığımı düşünülür. Həmçinin, AZAL-ın əldə etdiyi avadanlıqlara komponent səviyyəsində təmir-servis xidmətləri göstəriləcək.

Sonrakı mərhələdə ətraf regionlardan tələb olunan avadanlıqların Bakıda yığılıb ixrac edilməsi düşünülür. Şirkət rəsmisi "Thales"in Azərbaycanın Müdafiə Nazirliyi ilə müqavilə imzalamış ilk fransız şirkəti olduğunu deyib. Qeyd edək ki, hərbi və mülki sektorda fəaliyyət göstərən Fransanın "Thales İnternational" şirkətinin illik dövrüyəsi təqribən 20 milyard avro təşkil edir. 2018-ci ildə hazırlanmış reytiqində (Defense News Top-100) "Thales" dünyanın ən böyük müdafiə sənayesi şirkətləri sırasında 9-cu, 2019-cu ildə isə 16-cı yerdə qərarlaşıb. Dünyanın ən böyük 100 müdafiə sənayesi şirkəti siyahısında yer alan Avropa qitəsindən 5-ci ən böyük şirkətdir. 2018-ci ildə "Thales"in dövriyəsinin təqribən 8.5 milyard avrosu hərbi məhsulların payına düşüb. İndi bu şirkətlə Azərbaycan hərbi sahədə də əməkdaşlığı genişləndirməyi düşünür. Bu isə Qərb texnologiyasının daha sürətlə Azərbaycana gəlişinə imkan verir. Eyni zamanda, hərbi hava qüvvələri sahəsində Azərbaycanın mövqelərinin daha da güclənməsinə imkan verir.

Bundan başqa məlumdur ki, öz döyüş vasitələrini Azərbaycana təqdim edən digər Qərb ölkələrindən biri də İtaliyadır. Artıq bəllidir ki, İtaliyanın "Leonardo" şirkətinin "M-346 Master" reaktiv təlim-məşq təyyarəsinin bir neçəsi ölkəmizə gətirilib. Ümumiyyətlə, "Leonardo" korporasiyasının Azərbaycanda həyata keçirilən bir neçə layihəsi mövcuddur. Bu korporasiyanın tərkibinə daxil olan "Agusta Westland" şirkəti Azərbaycana helikopterlərin satışını həyata keçirib. Bu şirkətin tərkibində yer alan "OTO Melara" da Azərbaycanla əlaqələrini genişləndirmək istəyir. Məlumat üçün bildirək ki, "OTO Melara" müxtəlif silah sistemlərinin istehsalı sahəsində ixtisaslaşıb. Başqa bir Avropa ölkəsi olan Avstriyanın istehsalı olan müəyyən silahlar ordumuzda istifadə olunur. Bu çərçivədə Bolqarıstanı da qeyd etmək olar. Onunla da çox aktiv hərbi əməkdaşlıq var. Macarıstanla əlaqələr yüksələn xətt üzrə inkişaf edir, Çexiya və Slovakiyanın istehsalı olan artilleriya sistemləri, təlim təyyarələri, döyüş sursatları, simulyasiya vasitələri ordumuzun silahlanmasında yer alır. Finlandiya da Azərbaycana silah ixracını həyata keçirib. İsveçin dünya şöhrətli "SAAB" konserni isə Azərbaycana "JAS-39 Gripen E" təyyarəsinin təklif edib. Bu təyyarələr gediş ehtiyatına, davamlılıq qabiliyyətinə və müasir avionikasına görə analoqlarından fərqlənir. "Gripen E" "hava-hava" sinifli "Meteor", AMRAAM, IRIS-T və AIM-9 aviasiya raketləri ilə silahladırılır.

Bundan başqa məlumdur ki, Azərbaycan yaxın tezlikdə Rusiyadan Su-35 və MiQ-35 döyüş təyyarələri almağa hazırlaşır. Rus hərbi ekspert Andrey Frolov hesab edir ki, Azərbaycan Rusiyadan bu təyyarələrlə yanaşı, daha müasir hərbi helikopterlərin alışını da həyata keçirə bilər. Söhbət, ilk növbədə, Mİ-28H və Ka-52 helikopterlərindən gedir. Xüsusən də sonuncu Azərbaycan üçün daha çox maraq kəsb edir. Çünki ordusunu daha güclü hala gətirən Azərbaycan aviasiya qüvvələrinin də daha təkmil hala gəlməsi üçün zəruri addımlar atır. Dağlıq Qarabağ münaqişəsi hərb yolu ilə həll olunacağı təqdirdə isə aviasiya burada kifayət qədər həlledici faktorlardan biri olacaq və bu reallıq ölkəmizdə lazımınca qiymətləndirilir. Bu fonda Azərbaycan hərbi aviasiya parkına Rusiya istehsalı olan yeni hücum helikopterlərini daxil etməyi heç vaxt diqqətdən kənarda qoymur. Artıq müəyyən müddətdir Azərbaycan tərəfi Rusiya istehsalı olan Ka-52 "Alliqator" tipli zərbə helikopterlərinin satın alınmasına marağını ifadə edib. Bu da təsadüfi deyil. Ka-52 "Alliqator" kəşfiyyat-zərbə helikopteri istənilən hava şəraitində və günün istənilən vaxtında tankların, zirehli və zirehsiz döyüş texnikalarının, canlı qüvvələrin, düşmənin helikopterlərinin məhv edilməsi üçün təyin olunub. Helikopter desanta odlu dəstək göstərə, patrul xidməti yerinə yetirə və hərbi kalonların müşayiətini həyata keçirə bilər. Ka-52 "Alliqator" Suriyada Rusiya aviasiyasının tərkibində uğurlu şəkildə istsmara verilib. Yəni real döyüş şəraitində də tam özünü doğruldub.

Azərbaycan qardaş Türkiyədən də döyüş texnikasının alışını diqqətdə saxlayır. Dünyanın ən böyük 100 müdafiə sənayesi şirkəti sırasında yer alan Türk Aviasiya və Kosmos Sənayesi (TUSAŞ) şirkəti bu fonda ölkəmizlə yeni əməkdaşlıq münasibətləri qurmaqdadır. Xüsusən də TUSAŞ-ın sıfırdan yaratdığı, son illərdə Türkiyə Silahlı Qüvvələri tərəfindən hərbi əməliyyatlarda uğurla istifadə edilərək özünü doğrultmuş T-129 ATAK zərbə helikopteri və "Anka" pilotsuz uçuş aparatı Azərbaycanı da yaxından maraqlandırır. Şirkətin istehsalı olan "Hürkuş" təlim təyyarəsi və hədəf dronları da tezliklə ordumuzun ixtiyarında ola bilər. TUSAŞ şirkətinin baş direktoru Təməl Kotil bu xüsusda qeyd edir ki, T-129 ATAK helikopteri Azərbaycan şərtlərində test edilib:"T-129 ATAK zərbə helikopteri Azərbaycan şərtlərində üstün qabiliyyətlərini sərgiləmək fürsəti qazanıb. Azərbaycan Hərbi Hava Qüvvələrinin rəsmiləri ATAK zərbə helikopterimizə böyük maraq göstərdilər. Helikopterin texniki-taktiki xüsusiyyətləri barədə hərbi heyətə məlumatlar verildi. Azərbaycanda "Anka-S"in nümayiş uçuşlarının icra edilməsinə yönəlmiş görüşmələrimiz davam edir. Azərbaycanla həm də hədəf dronlarla, yəni əvvəlki illərdə "Durna" və indi "Şimşək"lə bağlı görüşmələr var. Önümüzdəki günlərdə "Şimşək" sisteminin Azərbaycana göndərilməsi, "Şimşəy"in uçuş nümayişi, atışlı və atışsız olmaqla, zenit-raket komplekslərinə qarşı tətbiqi nəzərdə tutulur.

"Şimşək" sisteminin Azərbaycanda sınaqlarından sonra ortaq istehsalı ilə bağlı Azərbaycanın müdafiə sənayesi şirkətləri ilə əməkdaşlığın yaradılmasını düşünürük. Azərbaycan rəsmiləri ilə keçirilən görüşmələrin sonunda, ən yaxın müttəfiqimiz Azərbaycanın Hərbi Hava Qüvvələrinin aviasiya sahəsində ehtiyaclarını yerli imkanlarla yaratdığımız "Anka" və "Aksunqur" pilotsuz uçuş aparatlarımız, "Hürkuş" və "Hürkuş-C" müasir təlim təyyarələrimiz, "Hürjet" yüngül hücum təyyarəsi, "Şimşək" yüksək sürətli hədəf təyyarələrimiz və son günlərdə gündəmdə olan rabitə və nəzarət peyk layihələrimizlə uzun müddət qarşılaya bilərik. Uzunmüddətli əməkdaşlığımızın sürətləndirilməsinin digər türkdilli dövlətlərə də örnək təşkil edə biləcəyini düşünürük".

Bütün bunlar ordumuzun ixtiyarında yaxın tezlikdə yeni çoxsaylı texnikanın olacağını deməyə əsas verir. Təbii ki, bütün bunlar mütləq mənada Qarabağ münaqişəsinin sonrakı gedişinə də öz təsirini göstərəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin regional şöbələri yaradıldı

**Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin siyasi kursunun və strateji inkişaf konsepsiyasının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hərtərəfli əsaslandırılmış müdrik dövlət siyasəti, yüksək siyasi iradəsi və dönməz qətiyyəti nəticəsində uğurla reallaşdırılan sistemli islahatlar ölkəmizin davamlı və dayanıqlı inkişafını təmin etməklə dövlətimizin daha da qüdrətlənməsinə, xalqımızın rifahının ildən-ilə yüksəlməsinə səbəb olub.**

Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, ölkəmizdə hüquq institutlarının möhkəmləndirilməsi, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının etibarlı təmin olunması üzrə fəaliyyətin daha da təkmilləşdirilməsi məqsədilə məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi, məhkəmələrin və prokurorluq orqanlarının işinin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil edilməsi prosesi sistemli olaraq davam etdirilir.

Dövlət başçısı tərəfindən 2019-cu il aprelin 3-də imzalanmış "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanda məhkəmələrin fəaliyyətinin müasir tələblərə uyğun qurulması, onların fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması, infrastrukturun təkmilləşdirilməsi və məhkəmə qərarlarının icra mexanizmlərinin müasirləşdirilməsi istiqamətində verilən tövsiyə və tapşırıqlar məhkəmə-hüquq sistemində institusional potensialın gücləndirilməsinə yönəlmiş ardıcıl tədbirlərin davamı olub.

Müasir dövrün çağırışlarına cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması, o cümlədən, ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədi daşıyan həmin Fərmanla müəyyən edilmiş vəzifələrin icrası istiqamətində Azərbaycan Respublikasının Baş Prokurorluğu Ədliyyə Nazirliyi və Ali Məhkəmə ilə birgə sistemli tədbirlər hazırlayaraq həyata keçirib.

Fərmanın 2-ci bəndində cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi istiqamətində dövlət başçısının tapşırıq və tövsiyələrinin icrası ilə əlaqədar Ali Məhkəmə, Baş Prokurorluq və Ədliyyə Nazirliyi tərəfindən Cinayət, Cinayət-Prosessual və İnzibati Xətalar məcəllələrinə 400-ə yaxın dəyişikliklər edilməsi haqqında qanun layihələri hazırlanaraq təqdim edilib.

Fərmanla məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsinin mütəmadi təhlil edilməsi və fəaliyyətin keyfiyyətinin artırılması üçün tədbirlərin görülməsi Baş Prokurorluğa tövsiyə edilib və bu məqsədlə müvafiq komissiya yaradılmaqla bu sahədə vəziyyət ətraflı və dərindən təhlil olunub, beynəlxalq standartlar və xarici dövlətlərin təcrübəsi öyrənilib.

Məhkəmələrdə dövlət ittihamının müdafiəsinin daha effektiv həyata keçirilməsi, vahid təcrübənin formalaşdırılması, məhkəmələrlə dövlət ittihamının müdafiəsini həyata keçirən prokurorlar arasında qarşılıqlı əlaqələrin daha səmərəli təşkilinin təmin edilməsi, əhalinin prokurorluğa müraciət etmək imkanlarının asanlaşdırılması məqsədilə, Baş prokurorun 24 fevral 2020-ci il tarixli əmrilə apellyasiya instansiyası məhkəmələrinin ərazi yurisdiksiyasına müvafiq olaraq, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin strukturu yenidən təşkil edilib və idarənin tərkibində Bakı, Gəncə, Sumqayıt, Şəki, Şirvan regional şöbələri, eləcə də Kassasiya instansiyası məhkəməsində dövlət ittihamının müdafiəsi üzrə və İttihamın təşkili və təhlili şöbələri təsis edilib.

Eyni tarixli sərəncamla Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsində mövcud vəzifələrin yüksək nəzəri bilik və peşə hazırlığı ilə fərqlənən təcrübəli prokurorluq işçiləri hesabına yenidən komplektləşdirilməsi üçün müsabiqə elan olunaraq, Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası və Hakimlərin Seçki Komitəsinin nümayəndələrinin də iştirak etdiyi Müsabiqə Komissiyası yaradılıb. Müsabiqənin nəticələrinə əsasən, idarənin prokuror və böyük prokuroru vəzifələrinə təyinatlar həyata keçirilərək ştat tərkibi 44 faiz yenilənib.

Bununla yanaşı, qeyd edilən sahədə elektron xidmətlərin tətbiqinin genişləndirilməsi və məhkəmələrdə dövlət ittihamının müdafiəsinin səmərəliliyinin daha da artırılması məqsədilə cinayət işlərinə məhkəmələrdə baxılmasının nəticələrinin elektronlaşdırılmasını əhatə edən "Elektron İttiham" proqramı hazırlanaraq istifadəyə verilib.

Həmçinin, dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsinin mütəmadi təhlil edilməsi və fəaliyyətin keyfiyyətinin artırılması üzrə zəruri tədbirlərin görülməsi davam etdirilərək, 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sitemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanda müəyyən edilmiş tapşırıq və tövsiyələrin yerinə yetirilməsinin təmin edilməsi məqsədilə Baş prokuror tərəfindən müvafiq sahəvi əmrlər imzalanıb.

Ümumilikdə, Fərmanın icrası vətəndaşlarımızın və hüquqi şəxslərin hüquqlarının məhkəmə müdafiəsinin yüksək tələblər səviyyəsində daha etibarlı təmin olunmasına, ədalət mühakiməsinə ictimai etimadın yüksəlməsinə, əhaliyə daha çevik, asan və alternativ xidmətlərin göstərilməsinə, regionlarda hüquq institutlarının inkişafına, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsinə, məhkəmələrə kənar müdaxilələrin qarşısının alınmasına, qeyri-prosessual münasibətlərin, süründürməçiliyin və digər neqativ halların yolverilməzliyinin, məhkəmə qərarlarının ədalətliliyinin və vaxtında icrasının təmin olunmasına, şəffaflığın və işlərə baxılmasının keyfiyyətinin artırılmasına, o cümlədən, cinayət təqibi orqanlarında başlanmış cinayət işlərinin istintaqı zamanı cinayət qanunvericiliyinin müddəalarına düzgün istinad edilməklə əmələ obyektiv hüquqi qiymət verilməsi, cinayət işlərinin yüksək peşəkarlıqla istintaq edilməsi, prokurorlar tərəfindən ibtidai araşdırmanın həm prokurorluq, həm də digər istintaq orqanlarında keyfiyyətlə aparılması istiqamətində kəsərli tədbirlərin görülməsinə yönəlmiş məhkəmə təcrübəsinin formalaşdırılmasına və icra olunması mexanizminin təsbit edilməsinə xidmət edib.



**Azərbaycan Respublikasının prokurorluq orqanları bundan sonra da öz fəaliyyətini dövlət başçısı tərəfindən göstərilən etimada layiq səviyyədə qurmaqla, qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi istiqamətində üzərinə düşən vəzifələri daha da məsuliyyətlə yerinə yetirərək, cinayətkarlığa qarşı ciddi və səmərəli mübarizə tədbirlərinin həyata keçirilməsini təmin edəcək.**

**Koronavirus pandemiyasının yaratdığı böhranın fəsadlarını aradan qaldırmaq üçün dövlətlər tərəfindən müxtəlif addımlar atılır. Amma o da faktdır ki, bu gün hətta ən çox inkişaf etmiş ölkələr belə yaranmış çətinliklər qarşısında çətin duruma düşüb. ABŞ-da, Avropada baş verənlər fonunda bunun real mənzərəsini indi daha aydın görmək olar.**

# Dövlət bu dəfə həm vətəndaşları, həm də bankları xilas edəcək - yeni sosial güzəşt paketi gündəmdə...

Bunlarla müqayisədə bir sıra ölkələrin, o cümlədən Azərbaycanın gördüyü qabaqlayıcı tədbirlər kifayət qədər effektiv olub, həm xəstəliyin yayılmasının qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir, həm də onun iqtisadi fəsadlarını minimal həddə endirir.

Burada, təbii ki, genişmiqyaslı sosial dəstək tədbirləri barədə ayrıca bəhs etmək lazım gəlir. Məsələn, məlumdur ki, pandemiyaya görə öz işini müvəqqəti olaraq itirən 600 mindən çox insan dövlət tərəfindən dəstəklə təmin edilir. Eyni zamanda, işsizlərlə bağlı problemlər öz həllini tapır, əhalinin sosial rifahını qorumaq üçün digər mühüm addımlar atılır. Dövlət tərəfindən elan edilən yeni dəstək tədbirləri ilə elə bir neçə gün əvvəl 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsait ayrılıb. Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən insanların əməkhaqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanır və bu kateqoriyaya aid insanların sayı 300 mindən çoxdur. Eyni zamanda, 300 minə yaxın mikro sahibkarın maliyyə vəziyyətinin təmin edilməsi üçün dövlət böyük maliyyə vəsaiti ayırıb. Beləliklə, yalnız bu kateqoriyaya aid olan 600 minə yaxın insan dövlətdən maddi dəstək alır. Dövlət sektorunda işləyənlərin əməkhaqları tam ödənilir. Dövlət və qeyri-dövlət sektoru üzrə iş yerlərinin və işçilərin əməkhaqqı gəlirlərinin qorunması üçün məqsədyönlü işlər aparılıb. Elektron sistem üzərindən gündəlik nəzarət həyata keçirilib. Ümumilikdə 1 milyon 629 min işçinin, o cümlədən dövlət sektoru üzrə 910 min, özəl sektor üzrə 719 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilib. Ümumilikdə, iqtisadi dəstək məqsədilə dövlət tərəfindən ayrılan vəsaitin miqdarının 3,5 milyard manata çatması gözlənir. Bu xüsusda dövlətin atacağı mühüm addımlardan biri isə kreditlərlə bağlı olacaq. İqtisadiyyat naziri Mikayıl Cabbarov bu günlərdə qeyd edib ki, Azərbaycanda bank kreditləri ilə bağlı tənzimləyici tədbirlərin yumşaldılması nəzərdə tutulur. Onun sözlərinə görə, bu addım banklara kredit ödənişləri məsələsində yumşaq davranmağa, vətəndaşlara verilən borcları restrukturizasiya etməyə imkan verəcək. Məsələ parlamentdə də diqqət mərkəzində olub və burada xüsusi karantin dövründə vətəndaşların banklara olan kredit borclarının dondurulması təklif edilib. Mərkəzi Bank sədri Elman Rüstəmov isə bu məsələnin hazırda müzakirə edildiyini bildirir. Elman Rüstəmov qeyd edir ki, bank kreditləri ilə bağlı hazırda işlər gedir: "Yaxın günlərdə bununla bağlı məsələləri açıqlayacağıq". Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov da bu xüsusda maraqlı açıqlamalar verib: "Koronavirus pandemiyası dövründə banklara kreditin qaytarılması ilə bağlı güzəştin edilməsi məsələsi müzakirə olunur. Ümumiyyətlə, kreditlərlə bağlı dövlət bir neçə istiqamətdə dəstək paketi hazırlayıb. Yaxın günlərdə buna aydınlıq gətiriləcək". Onun sözlərinə görə, müzakirələrin nəticəsində hansı qərarın qəbul olunması bilinəcək: "İstehlak kreditləri ilə bağlı Mərkəzi Bank sədri də dedi ki, məsələyə baxılır. İstehlak kreditləri alanlar işləyən insanlardır. İşləmirsinizsə, sizə heç kim kredit verə bilməz. Kredit götürən sahibkarlara isə dövlət dəstəyini göstərir. Sahibkarlara güzəştli kreditlər verilir, onların faizlərinin bir qismini dövlət öz üzərinə götürüb. Müqavilə əsasında işləyənlərin əməkhaqqı fonduna dövlət dəstək olur. Bu tədbirlər imkan verəcək ki, onlar öz kreditlərini ödəsinlər. Görülən tədbirlər nəticəsində kreditlər yumşaldılacaq, əlavə kreditlər veriləcək. Verilən kreditlərin bir hissəsini də dövlət üzərinə götürəcək".

Ekspertlər indiki vaxtda bütün bunları olduqca vacib amil sayır. "Moody`s" beynəlxalq reytinq agentliyinin Azərbaycanın bank sektorunun qiymətləndirilməsinə dair son hesabatında da deyilir ki, Azərbaycan dövləti tərəfindən banklara, xüsusilə də ölkənin ən böyük banklarına dəstək verilməsi ehtimalı yüksək olaraq qalır. Bu hal olduqca vacib sayılır. Ən azı o baxımdan ki, koronavirus pandemiyası dövründə bank sektoru üçün böyük risqlər yaranıb. Vətəndaşların kredit qaytarmaq imkanları zəifləyib. Amma dövlət dəstəyi bu sahədə həm bankları, həm də vətəndaşları xilas edəcək. Bank və maliyyə məsələləri üzrə ekspert Əkrəm Həsənov isə hesab edir ki, burada banklar özləri də dövlətə kömək etməlidir. Ekspert bildirib ki, bir sıra ölkələrdə banklar elə öz hesabına kredit tətili elan edir:"Yəni vətəndaşlara deyirlər ki, bir neçə ay ərzində kredit ödənişi etməyin, sonra ödəniş edərsiniz. Beləcə, banklar öz hesablarına vətəndaşlara güzəşt edirlər. Əksər ölkələrdə isə dövlət bu xərcləri öz üzərinə götürüb, banklar öz hesabına bunu etmir. Yəni dövlət banklara təminat verib ki, kredit tətili elan edin və itkiləriniz qarşılanacaq". Onun sözlərinə görə, dövlət vətəndaşların banklara aylıq ödəməli olduğu faizləri öz üzərinə götürməlidir, kredit üzrə əsas borcu yox:"Çünki bu aylarda bankların itirdiyi əsas borc deyil, ancaq faizdir. Məsələn, vətəndaş ayda 200 manat banka kredit ödənişi edir, bunun 150 manatı əsas borcdur, 50 manatı isə faizdir. İndi 3 ay kredit tətili elan edilsə, vətəndaş 3 ay ödəniş etməsə, bankın itirəcəyi faizlər 150 manat olacaq. Yəni 3 ay ərzində əsas borc (450 manat) qalır, bank yalnız 150 manat itirir. Vətəndaş əsas borcu sonra verəcək və bankın burada itkisi yoxdur, amma faiz bank üçün itkidir. Bank hər aya görə gərək faiz alsın, çünki bank da öz növbəsində götürdüyü kreditlərə, əmanətlərə görə faiz ödəməlidir. Ona görə də dövlət həmin vətəndaşın cəmi 150 manatını, yəni faizini banka ödəməlidir".




Ümumiyyətlə, hesab edilir ki, indiki məqamda banklar da kredit məsələsində dövlətə və vətndaşlara imkan daxilində yardım etməlidir. Ən azı o baxımdan ki, bankların çətin günündə dövlət onlara yardım edib.

***Ramil QULİYEV***

# Azərbaycanın enerji sektoruna xarici investisiya marağı - hələlik 7-dən 2-ni seçdik...

**Rəsul Cahangirli:** *"Hansı şirkət daha sərfəli sərmayə şərtlərini təklif edirsə..."*

**"Ölkəmizdə 440 meqavat gücündə - biri külək, biri günəş olmaqla, 2 stansiya tikiləcəkdir, sırf xarici investorların hesabına". Bunu Prezident İlham Əliyev "Azərenerji" ASC-nin Baş idarəetmə kompleksinin açılışında çıxış edərkən deyib.**

*"Belə vəziyyət Azərbaycana öz maraqlarına uyğun daha uğurlu seçim etməyə şərait yaradır"*

Dövlət başçısının sözlərinə görə, bütün müsbət dinamika və eyni zamanda, sabitlik ona gətirib çıxardı ki, xarici investorlar Azərbaycana pul qoymaq qərarına gəliblər: "Bu ilin yanvar ayında ilkin razılaşma əldə edildi və bərpa olunan enerji sahəsində böyük təcrübəyə malik 2 böyük şirkət Azərbaycanla ilkin sazişləri də imzaladı. Bu sazişlər əsasında ölkəmizdə 440 meqavat gücündə - biri külək, biri günəş olmaqla, 2 stansiya tikiləcəkdir, sırf xarici investorların hesabına. Onu da bildirməliyəm ki, bu layihələri icra etmək, yəni investisiya qoymaq istəyən şirkətlərin sayı 7 idi. Mən sad çəkmək istəmirəm, onların arasında dünyanın ən böyük enerji şirkətləri də vardı. Ancaq müsabiqə onu göstərdi ki, 2 şirkət daha gözəl şərtlər verib və onlar artıq bu işləri başlamalıdırlar".

Maraqlıdır, Azərbaycanda külək və günəş enerjisi əsasında elektrik stansiyası tikmək istəyən 7 xarici şirkətdən yalnız 2-sinin seçilməsi nə deməkdir? Ümumilikdə, bizim enerji sektorumuza xarici investorların böyük marağı nə ilə bağlıdır?

Sözügedən məsələyə aydınlıq gətirən ekspert Rəsul Cahangirli bunu bir sıra amillərlə əlaqələndirdi: "Məsələ ondadır ki, Azərbaycanda mövcud olan sabitlik, islahatlar nəticəsində yaradılan əlverişli biznes mühiti xarici investorları cəlb edir. Enerji infrastrukturunun yaxşı səviyyədə olması və bu sahədə son illər görülən bir sıra işlər də sözügedən məsələdə müsbət rol oynayır. Bununla belə, Azərbaycan xarici investorlardan asılı deyil. Ancaq elə ölkə var ki, bu məsələdə xarici amillərdən asılıdır. Bizdə isə situasiya fərqlidir. Xarici sərmayədarlar Azərbaycana sərmayə yatırmağın perspektivli olduğunu düşündükləri üçün ölkəmizə daha çox maraq göstərirlər. Belə olan halda, seçim etmək imkanı artır. Yəni hansı şirkət daha sərfəli sərmayə şərtlərini təklif edirsə, həmin xarici şirkətlə müqavilə bağlanır. O baxımdan, 7 şirkətdən yalnız 2-sinin seçilməsi məhz bu faktorla bağlıdır. Belə vəziyyət Azərbaycana öz maraqlarına uyğun daha uğurlu seçim etməyə şərait yaradır. Ona görə də bu bizim uğurumuz sayılmalıdır. Yaranan belə vəziyyət Azərbaycanda alternativ enerji mənbələrinə daha çox xarici sərmayənin yönəldiləcəyindən xəbər verir. Bu da olduqca perspektivlidir. Məsələ ondadır ki, getgedə inkişaf etmiş ölkələr alternativ enerji resurslarından istifadəyə daha çox önəm verirlər".



*Vidadi ORDAHALLI*

# Cəmi 15 gündə 80 min əmək müqaviləsi - Azərbaycanda "kölgəli" məsələ sürətlə işığa çıxır

**Ruslan Atakişiyev:** *"Dəstək paketi nəticəsində əmək müqavilələrinin sayı artıb"*

**"Aprelin 5-dən etibarən əmək müqaviləsi olmadan şirkətlər, təşkilatlar işçilərinə icazə ala bilmirlər. Bunun nəticəsidir ki, həmin tarixdən bu günə qədər 80 mindən artıq yeni müqavilə rəsmiləşdirilib". Bunu "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsin direktoru Fariz Cəfərov "Real TV"-nin efirində deyib.**

*"...dövlət və qeyri-dövlət sektoru üzrə iş yerlərinin və işçilərin əməkhaqqı gəlirlərinin qorunması..."*

O qeyd edib ki, bəzi təşkilatlar əmək müqaviləsi ilə yox, xidməti müqavilə ilə əməkdaşı çalışdırırlar: "Bu zaman işçinin vergi ödəyicisinin elektron nömrəsi (VÖEN) daxil edilməklə icazə alına bilər. Bununla yanaşı, könüllü təşkilatlarına da imkan yaradılıb ki, öz könüllü nümayəndələrinə icazə ala bilsinlər".

Qısa müddət ərzində 80 min əmək müqaviləsinin rəsmiləşdirilməsi kölgə iqtisadiyyatının aradan qaldırılmasına səbəb olacaq.

Əmək müqavilələrinin sayının artması barədə fikir bildirən iqtisadçı-ekspert Ruslan Atakişiyev dedi ki, qlobal xarici şoklar, bütün ölkələr kimi, Azərbaycan iqtisadiyyatına da öz neqativ təsirlərini göstərməkdədir. Pandemiyanın yayıldığı ilk gündən başlayaraq, Azərbaycan dövləti bu faciə ilə mübarizədə qabaqlayıcı kompeks tədbirlər görməyə başladı. Pandemiyadan zərər çəkmiş sahələr müəyyənləşdirilib və dövlət dəstəyinin göstərilməsi ilə bağlı proqramlar hazırlanıb: "Dövlət, ilk növbədə, insanların sosial rifahını prioritet hesab edərək onlara sosial dəstək göstərdi. Belə ki, sosial rifah paketinin icrası çərçivəsində dövlət və qeyri-dövlət sektoru üzrə iş yerlərinin və işçilərin əməkhaqqı gəlirlərinin qorunması üçün işlər aparılıb. Elektron sistem üzərindən gündəlik nəzarət həyata keçirilib. Bu paketin əhatə dairəsi 1 milyon 629 min işçi, o cümlədən, dövlət sektoru üzrə 910 min, özəl sektor üzrə 719 min olub. Əmək müqaviləsi sayında azalma deyil, əksinə, artım baş verib. 1 aprel - 17 aprel zaman aralığında 55 min artım olub. 2020-ci il yanvarın 1-dən bu yana isə bu rəqəm, ümumilikdə, 77 min artıb.

**Beləliklə, son 17 gündə əmək müqavilələrində 22 min nəfər artım olub. Statistika göstərir ki, 300 min muzdlu işçinin əməkhaqlarının bir hissəsi maliyyələşdirilir və təqribən 300 min fərdi sahibkara dəstək verilir. Vurğulayım ki, 300 min muzdlu işçinin əməkhaqlarının bir hissəsinin dövlət tərəfindən ödənilməsi ilə bağlı qərarın verilməsi koronavirusla bağlı xüsusi karantin rejimi nəticəsində ehtimal olunan işsizliyin qarşısını alıb. Və dəstək paketi nəticəsində əmək müqavilələrinin sayı artıb".**



*Günel CƏLİLOVA*

**Dünya birlalarında neftlə bağlı baş verən son olaylar nəinki istehsalçıları, hətta istehlakçıları da ciddi surətdə narahat edib. Neftin qiymətinin mənfi həddə enməsi daha qorxulu qlobal böhran vəd etdiyindən, indi dünya ölkələri hamısı bu məsələyə xüsusi diqqət yetirir.**

# Dünya yeni iqtisadi xaos astanasında - neft qiymətləri yüksəlməsə...

Neft ucuzlaşması, demək olar ki, bütün markalar üzrə özünü göstərir. Xatırladaq ki, aprelin 20-də Amerikanın "Texas light" (WTI) markalı neftinin qiyməti Nyu-York birjasında 300 faiz ucuzlaşaraq bir barrel üçün mənfi 37,63 dollara enib. Yalnız bundan bir gün sonra qiymət yenidən sıfır həddi keçərək müsbətə doğru dəyişib. Nyu-Yorkun NYMEX birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 39,2 dollar bahalaşaraq 1,6 dollar təşkil edib. Bununla qiymət mənfi həddən çıxıb. "Brent" markalı neftin bir barrelinin qiyməti 0,13 dollar geriləyərək 25,44 dollar olub. "Azəri Layt" markalı neftin bir barrelinin qiyməti isə 0,85 dollar ucuzlaşaraq 21,3 dollar təşkil edib.

"Reuters" agentliyi yazır ki, ən böyük ucuzlaşma hələ də ABŞ neftində özünü göstərir. Hətta may ayı üçün müqavilələrdə Amerika neftinin bir barrelinin qiyməti 1 dollara rəsmiləşdirilib. Yalnız mayın sonunda bu qiymətin 10 dollara çatması gözlənir. Agentlik qeyd edir ki, neft treyderləri istənilən yolla may müqavilələrindən yaxa qurtarmağa çalışır, onları "bişmiş qaynar kartof" kimi bir-birinə atırlar. Başa düşürlər ki, əllərindəki nefti may ayında heç kimə sata bilməyəcəklər. Situasiyanın unikallığı bununla bağlıdır ki, birja treyderləri "kağız" neftlə alver etməyə vərdiş ediblər, yəni fiziki problemlərlə qarşılaşmırlar. Lakin iqtisadi fəallığın dünyada koronavirus pandemiyasına görə kəskin aşağı düşməsi buna gətirib çıxarıb ki, may müqavilələrinin sahibləri artıq tələbata ümid edə bilməzlər. Bu isə o deməkdir ki, onlar may ayında həmin müqavilələr üzrə artıq real neftin sahibləri olacaqlar. Və həmin nefti heç kimə sata bilməyəcəklər, saxlamaq isə böyük pullar hesabına başa gələcək. Digər tərəfdən, dünya miqyasında bütün saxlama anbarlarının dolması da vəziyyəti pisləşdirir. Hətta neft tankerlərinin böyük əksəriyyəti də dolu vəziyyətdədir. Bu durumda neft hasilatında dəyişiklik olmaması bazarda neft bolluğunu artırır. Təbii ki, belə vəziyyət də qiymətlərə öldürücü təsir edir. Neft hasilatının azalmasına dair OPEC+ anlaşması isə gələn aydan qüvvəyə minir. Amma hesab edilir ki, indi bazarda tələbdən xeyli artıq neft olması qiymətlərin sabitləşməsinə böyük əngəldir. Bu durumda ABŞ prezidenti Donald Tramp qeyd edib ki, neftin hazırkı qiyməti "çox maraqlı"dır. Bu qiymət ABŞ-ın "qara qızıl" ehtiyatlarını tamamilə doldurmağa imkan verəcək.

O, ehtiyatlara 75 milyon barrelə qədər neft əlavə etmək niyyətini bildirib:"Biz neftin rekord dərəcədə aşağı qiymətlərinə əsaslanaraq, milli ehtiyatlarımızı, strateji rezervlərimizi doldururuq və ehtiyatlarımıza 75 milyon barrelə qədər əlavə etməyə ümid edirik. Və bu, uzun müddət ərzində ilk dəfə baş verəcək". Lakin Trampın bu açıqlaması da qiymət enişinin qarşısını ala bilməyib.

Rusiyalı iqtisadçı Eduard Xarin isə bildirib ki, ABŞ hakimiyyəti neft qiymətlərinin stabilləşməsi, elə də böyük olmayan yerli istehsalçıların müflis olmasına imkan verməmək üçün şifahi müdaxilələrə geri dönə bilər:"Mən ABŞ tərəfindən yeni şifahi müdaxilələrin olacağını istisna etmirəm.

Ona görə ki, bu gün neft bazarında baş verənlər hər kəsdən çox amerikalı istehsalçılara təsir edir. Neft qiymətləri 1-1,5 ay ərzində indiki kimi qalarsa, Amerikanın bəzi neft şirkətləri ömrünü başa vura bilər". Yaranmış durumda ekspertlər qiymətlərdə sabitlik üçün bazara dərhal müdaxiləni vacib sayır. Artıq Səudiyyə Ərəbistanı hasilatı indidən azaltmağa hazır olduğunu bildirir. Rusiya Siyasi İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Vasili Koltaşov da bazara bütün müdaxiləni vacib sayır. Ekspert bildirir ki, hazırda işsizliyin sürətlə artdığı Qərbdəki böhran nəzərə alınsa, neftin qiymətləri artmalıdır: "Neft bazarı çöküb, həm də ifrat dərəcədə çöküb. Qərbdəki mövcud böhran vəziyyəti neft qiymətlərinə təzyiq edəcək. İndi OPEC+, yaxud hətta OPEC++ ölkələri müştərək səylərlə hasilatı və eyni zamanda neftin ixracını azalda bilər. Buna baxmayaraq, bazar təzyiq altında qalacaq. Federal Ehtiyatlar Sisteminin maliyyə bazarına əlavə pul buraxacağı, Avropa Maliyyə Bankı və İngiltərə Bankının da eyni addımı atacağı nəzərə alınsa, qiymətlər artmağa başlaya bilər.

Bununla belə, vəziyyət çox dəyişkəndir. OPEC+ formatının strategiyası neft qiymətlərinin yenidən kəskin azalmasını əngəlləyərək 25 dollardan yuxarı bir səviyyədə sabitləşməsini təmin etməyə yönəlməlidir.

Bundan sonra da tədricən qiymətlər artmalıdır. Belə olan halda qiymətlər yavaş-yavaş 40 dollara çata bilər. Əks təqdirdə dünyanı böhran gözləyir".



**Gözlənilən əsas hal budur ki, istehsalçılar hasilatı nəzərdə tutulduğundan daha çox azaltsın. Gələn ay üçün bu gündəlik 10 milyon barrel olsa da, indiki qiymət tənəzzülü fonunda hasilatın 2 dəfəyədək çox azalması vacib sayılır. Artıq bir sıra ərəb ölkələri buna razılıq verə biləcəklərini açıqlayıb. Əks təqdirdə neft ətrafında baş verənlərin dünyanı yeni iqtisadi xaosa sürükləməsi qaçılmaz sayılır.**

***Nahid SALAYEV***

# Azərbaycanda ödənişli ictimai işlərlə məşğul olanların sayı 2 min də çoxaldı...

***Əhməd Abbasbəyli:** "Ödənişli ictimai işlərə cəlb edilən vətəndaşların sayının son üç-dörd gün ərzində 12 minə çatdırılması ilin sonuna qədər..."*

**Dünya hələ də koronavirus pandemiyası ilə mübarizə aparmaqdadır. Azərbaycanda da virusa qarşı mübarizə tədbirləri davam etdirilməklə yanaşı, cəmiyyətdə sosial dayanıqlığın artırılması üçün sosial layihələr həyata keçirilir, məşğulluğun təmin edilməsi üçün konkret işlər görülür.**

Məlumdur ki, Azərbaycan dövləti koronavirusla mübarizə dövründə də vətəndaşların məşğulluğunu unutmur və onların müxtəlif iş yerləri ilə təmin olunması üçün xüsusi tədbirlər həyata keçirilir.

Bildiyimiz kimi, son illər Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkəmizdə vətəndaşların ödənişli ictimai işlərə cəlb olunması prosesi həyata keçirilir və indiyə qədər xeyli sayda insan ictimai işlərdə çalışıb.

Bildiyimiz kimi, Prezident İlham Əliyev daha çox sayda vətəndaşın ödənişli ictimai işlərə cəlb edilməsi üçün müvafiq qurumlara tapşırıqlar verib.

Qeyd edək ki, son günlər daha 2 min nəfər ödənişli ictimai işlərə cəlb olunub.

Bildirək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, ödənişli ictimai iş yerlərinin 37 mindən 90 minə çatdırılması istiqamətində addımlar davam etdirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən mətbuata verilən məlumata görə, bu işlər çərçivəsində daha 2 min nəfər DOST İş Mərkəzi vasitəsilə ödənişli ictimai işlərə cəlb olunub.

Beləliklə, 37 min ödənişli ictimai işçidən əlavə, son günlər 12 min nəfər də haqqı ödənilən ictimai işlər proqramına cəlb edilib. Həmin işlərdə çalışanların sayı artıq 49 mindir və bu say 90 minə çatdırılacaq.

Yeni yaradılan ictimai iş yerləri əsasən dezinfeksiya işlərinin aparılması, tənha yaşlılara və əlilliyi olan şəxslərə sosial xidmətlərin göstərilməsi və s. kimi sahələri əhatə edir.

DOST İş Mərkəzi ilə ödənişli ictimai işlərə cəlb olunan şəxslər arasında əmək müqaviləsi bağlanaraq, elektron sistemdə qeydiyyatdan keçirilərək rəsmiləşdirilir.

"Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri, tanınmış sosioloq Əhməd Abbasbəylinin fikrincə, Azərbaycanda haqqı ödənilən ictimai işlərə cəlb edilən vətəndaşların sayının 2 min nəfər də artması müsbət haldır. Bu prosesin məşğulluğun təmin edilməsində mühüm rol oynadığını deyən sosioloq hesab edir ki, pandemiya dövründə dövlətin vətəndaşların məşğulluğunu təmin etməsi onların sosial rifah halının yaxşılaşdırılmasına hesablanıb. Müsahibimiz vurğuladı ki, hazırda dünyada tamam başqa proseslər gedir və ölkələrin başı daha çox onları qəfil yaxalayan koronavirusa qarışıb, bu səbəbdən də onlar məşğulluq haqqında düşünmürlər. Azərbaycanda isə zamanında görülən qabaqlayıcı tədbirlər nəticəsində koronavirusun lokallaşdırılması prosesi artıq nəticə verir. Sutka ərzində sağalmaların yoluxmaları üstələdiyini qeyd edən ekspert hesab edir ki, bütün bunlar dövlət tərəfindən görülən tədbirlərin nəticəsi sayılmaldır.

"Bildiyimiz kimi, Azərbaycan dövləti koronavirusla mübarizə apardığımız dövrdə belə, vətəndaşlarımızın sosial rifah halının yüksəldilməsinə, məşğulluqlarının təmin edilməsinə yönəlik layihələr həyata keçirir. Haqqı ödənilən ictimai iş yerlərinin yaradılması və ora cəlb edilən insanların sayının artırılması çox müsbət bir haldır. Dünyada məşğulluqla bağlı ciddi problemlərin mövcud olduğu bir vaxtda Azərbaycanda məşğulluğun artırılmasına xüsusi önəm verilməsi diqqəti çəkir. Mən ötən dəfə qeyd etmişdim ki, haqqı ödənilən ictimai iş yerlərinin sayı daha da artacaq. Bildiyimiz kimi, cənab Prezident bir neçə gün əvvəl nazirlərlə keçirdiyi videoiclasda bu il ictimai işlə təmin olunan vətəndaşların sayının 90 min nəfərə çatdırılması barədə göstəriş verdi".



*"Vətəndaşların haqqı ödənilən ictimai iş yerlərinə cəlb edilməsinin rəsmiləşdirilməsi, onlarla əmək müqavilələrinin bağlanması çox mühüm məsələdir"*

Ə.Abbasbəyli onu da qeyd etdi ki, bir neçə gün əvvəl 10 min şəxs haqqı ödənilən ictimai işlərə cəlb olunub. Bu insanların pandemiya dövründə əsas sayılan dezinfeksiya və həssas qruplara sosial xidmətlərə cəlb edilməsinin müsbət olduğunu deyən ekspert hesab edir ki, ödənişli ictimai iş yerlərinin yaradılması pandemiya ilə əlaqədar ölkədə əhalinin məşğulluq imkanlarının daha da artırılmasına səbəb olur:

**"Vətəndaşların haqqı ödənilən ictimai iş yerlərinə cəlb edilməsinin rəsmiləşdirilməsi, onlarla əmək müqavilələrinin bağlanması çox mühüm məsələdir. Bu insanlar işə rəsmən qəbul edilir və onlarla əmək müqavilələri bağlanır. Bu da onların məşğulluğunun rəsmiləşdirilməsinə xidmət edir. Ödənişli ictimai işlərə cəlb edilən vətəndaşların sayının son üç-dörd gün ərzində 12 minə çatdırılması ilin sonuna qədər bu istiqamətdə qarşıya qoyulan hədəflərə çatmağın mümkün olduğunu deməyə əsas verir" - deyə ekspert bildirdi.**

***İradə SARIYEVA***

# Kolleclərimizdə yeni ixtisaslar - aqroturizm, torpaq mühafizəsi...

**Kənd təsərrüfatı iqtisadiyyatın qeyri-neft sektorunda özünəməxsus yeri olan sahədir. Bu sahənin dünəninə və bu gününə nəzər salsaq, aradakı ciddi fərqi görmək olar. Hazırda bu sahə üzrə ixtisaslı kadr azlığı hökm sürür. Belə ki, artıq neçə ildir kənd təsərrüfatının inkişafına dövlət səviyyəsində nəzarət edilsə də, bu sahəyə maraq aşağı səviyyədədir.**

Sahənin inkişafı üçün bir sıra strategiyalar təsdiqlənir, fermerlərə kreditlər verilir, müəyyən güzəştlər edilir. Amma buna baxmayaraq, bu və ya digər tədbirlərin həyata keçirilməsi mövcud olan problemi aradan qaldırmır.

Problem isə bu sahədə mütəxəssis çatışmazlığıdır. Bu problemin həll olunması üçün kolleclərdə yeni ixtisaslar tədris olunacaq. Aqroturizm, hidromeleorasiya və torpaq mühafizəsi. Bunlar kolleclərdə tədris olunacaq yeni ixtisaslardır. Nazirlər Kabinetinin kolleclər üçün müəyyən etdiyi yeni ixtisaslarla bağlı beynəlxalq təcrübəyə uyğun müasir dərsliklər də hazırlanacaq.

Aqroturizm, hidromeliorasiya və akvakultura - bu yeni ixtisaslar kolleclərə qəbulda Nazirlər Kabinetinin təsdiq etdiyi yeni sahələrdən bir neçəsidir. Əmək bazarının tələbləri nəzərə alınmaqla Nazirlər Kabinetinin orta ixtisas təhsili üzrə müəyyən etdiyi yeni ixtisaslara qəbul 2021-2022-ci tədris ilindən start götürəcək.

Ekspertlər hesab edirlər ki, yeni yaradılacaq ixtisaslar aqrar sahənin inkişaf etməsinə səbəb olacaq.

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, aprel ayının 17-si Nazirlər Kabineti orta ixtisas təhsili (kolleclər) üzrə ixtisasların yeni təsnifatını təsdiq etdi. Yenilənmiş ixtisaslar üzrə qəbul 2021/22-ci tədris ilindən başlayacaq: "Xatırladım ki, kollec ixtisaslarının əvvəlki təsnifatı 2010-cu ildə təsdiq edilib və həmin təsnifat üzrə artıq 10 ildir kadr hazırlığı aparılırdı.

Yeni təsnifatda 141 ixtisas müasir əmək bazarının tələbləri, işəgötürənlərin təklifləri və rəyləri, ölkəmizdə orta ixtisaslı müasir kadrlara olan ehtiyaclar və beynəlxalq təcrübə nəzərə alınmaqla müəyyənləşdirilib. Yeni təsnifatda bir sira ixtisaslar birləşdirilib, bəzi yeni ixtisaslar əlavə olunub və uyğun olmayan ixtisaslar təsnifatdan çıxarılıb.

Kənd təsərrüfatı ixtisasları qrupunda əvvəl 8 ixtisas üzrə kadr hazırlığı həyata keçirilirdisə, indi beynəlxalq təcrübə nəzərə alınaraq bu say 13-ə qədər qaldırılıb. Aqroturizm, hidromeliorasiya və torpaq mühafizəsi, ipəkçilik, istixana təsərrüfatı, pambıqçılıq, su bioehtiyatları və akvakultura kimi yeni ixtisaslar yaranıb, digər ixtisasların adında redaktə xarakterli dəyişikliklər edilib.

İlk öncə təhsil müəssisələrində təklif olunan ixtisaslar əmək bazarının tələbləri ilə uyğunlaşdırılmalıdır və bu məqsədlə yenilənmiş ixtisaslar işəgötürənlərin rəy və təklifləri nəzərə alınmaqla tərtib olunub.

Eyni proses ötən il ali təhsil ixtisasları yenilənən zaman da təşkil edilib və BP şirkətindən tutmuş, digər iri müəssisələr ixtisasların tərtibatında bilavasitə iştirak edirdi.

Son illər üzrə qəbul nəticələrinə baxdıqda görürük ki, qəbul olan tələbələrin sayı və orta bal göstəriciləri əhəmiyyətli dərəcədə artıb. Göstəricilərin yüksəlməsində ölkəmizdə aqrar sahə üçün mütəxəssis hazırlığının səviyyəsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, kənd təsərrüfatı sahələrində maddi-texniki bazanın əsaslı şəkildə yenidən qurulması, kənd təsərrüfatı ixtisaslarına yalnız dövlət sifarişilə və ödənişsiz əsaslarla tələbə qəbulunun aparılması, xüsusilə cari tədris ilində qəbul imtahanlarında yüksək bal toplayan tələbələrə əlavə təqaüdlərin verilməsi, şəffaf təhsil mühiti amili mühüm rol oynayıb".

Ekspertin sözlərinə görə, son illər gənclərin kənd təsərrüfatı ixtisaslarına axınının kütləvi xarakter almasının əsasında duran ən mühüm amillərdən biri ölkədə bu sahəyə yüksək diqqətin ayrılmasının, əmək bzarında bu ixtisaslar üzrə məzun olmuş şəxslərin işlə təmin olunma imkanlarının yüksək olmasıdır.

İqtisadçı-ekspert Könül Nuriyeva bildirdi ki, dövrün tələbinə uyğun olaraq, yeni texnika və texnologiyaların tətbiqi bu sahəyə müsbət təsir göstərər: "Ölkəmizin ilk olaraq qarşıya qoyduğu məqsədlər makroiqtisadi sabitliyin qorunması, enerji, ekoloji təhlükəsizliyin yaradılması, yoxsulluğun azaldılması, ərzaq təminatının artırılmasından ibarətdir. Neft erası bitdikdən sonra qeyri-neft sektorunu inkişaf etdirmək məcburiyyətində qaldıq. Qeyri-neft sektorunun inkişaf etdirilməsində ən böyük pay kənd təsərrüfatının üzərinə düşür. Təəssüflər olsun ki, bu gün bu sahədə kadr azlığıdır. Bunun da bəlli səbəbləri var. Azərbaycanda kənd təsərrüfatının ən inkişaf etmiş vaxtı 70-80-ci illərə düşür. Sovet dövründə xalqların təsərrüfat bölgüsü deyilən bir sistem var idi. Yəni hər ölkəyə fərqli bir sahə düşürdü. Bu zaman Azərbaycanın payına üzümçülük, pambıqçılıq, baramaçılıq, tütünçülük və s. düşürdü. Ondan sonra neft sektoru inkişaf etdiyinə görə əhalinin məşğulluq fəaliyyəti bu sahəyə yönəldi və kənd təsərrüfatına maraq azaldı. Amma son dövrlər baş verən bəzi iqtisadi proseslərdən sonra artıq ölkəmizdə bu sahənin inkişaf etdirilməsinə zərurət yarandı".

**K. Nuriyeva aqronomluq ixtisasına olan maraqdan da danışdı: "Mən düşünmürəm ki, bu peşəyə maraq yoxdur. Son illər kənd təsərrüfatına diqqətin artırılması bu ixtisasa olan marağa təsir edib. Məncə, bu sahəni universitetlərdə prioritet sahəyə çevirməklə gənclərdə həvəs yaratmaq lazımdır. Bu bir az da təbliğatdan asılıdır. Gənclər arasında təbliğat işi aparılmalıdır. Hamıya bəlli məsələdir ki, artıq neftin dövrü bitib. Qeyri-neft sektoru kimi kənd təsərrüfatı çox lazımlı sahədir. Həmin sahə üzrə bizdə ciddi şəkildə ixtisaslı kadrlara ehtiyac var. Hazırkı dövr üçün ixtisas seçimi edən abituriyentlər bunları nəzərə almalıdırlar".**

*Günel CƏLİLOVA*



***Kamran Əsədov:*** *"Göstəricilərin yüksəlməsində ölkəmizdə aqrar sahə üçün mütəxəssis hazırlığının səviyyəsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması..."*

***Könül Nuriyeva:*** *"Son illər kənd təsərrüfatına diqqətin artırılması bu ixtisasa olan marağa təsir edib"*

№ 62 (4193) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

22 APREL 2020-ci il

www.baki-xeber.com



# Tarixin ən dağıdıcı yanğınları...

**Tarix boyu yanğınlar təkcə əmlakı deyil, insan həyatını məhv etməklə, eləcə də iqtisadiyyata böyük zərər vurmaqla dəfələrlə fəlakətlərə səbəb olublar. "Oxu.az" bəşəriyyət tarixində baş verən ən dəhşətli və dağıdıcı yanğınları təqdim edir:**

Romada yanğın. Bu, barəsində günümüzə qədər məlumat gəlib çatan ilk yanğınlardan biridir. Hadisə 64-cü ildə Romada baş verib. Alov bütün şəhəri bürümüşdü və demək olar, yeddi gün tüğyan etmişdi. Yanğın nəticəsində xeyli insan həlak olmuşdu. Sağ qalanlar isə evsiz qalmışdılar. Böyük London yanğını. Böyük London yanğını 1666-cı ildə baş vermiş və dörd gün davam etmişdi. O zaman şəhərdə əksər evlərin damı samandan idi, buna görə də yanğın böyük sürətlə yayılmışdı. Bundan başqa, güclü külək də yanğının yayılmasına səbəb olmuşdu. Hadisə nəticəsində 13 500 ev, 87 kilsə məhv edilmiş, həmçinin, administrasiyanın bütün binaları yanmışdı. Çoxlu insan həlak olmuşdu. Yanğın şəhərin iqtisadiyyatına böyük zərbə vurmuşdu, bərpa işləri təxminən 50 il davam etmişdi. Lissabonda yanğın. 1755-ci ildə Lissabonda əsl fəlakət baş vermişdi. Hər şey böyük zəlzələnin baş verməsi və nəticədə şəhərin üzərinə sunami çökməsi ilə başlamışdı. Bundan sonra Lissabonda yanğın başlamış və nəticədə çox sayda bina məhv olmuşdu. Faktiki olaraq şəhər yarıya qədər dağılmışdı, 40 min insan həlak olmuşdu. Ümumilikdə, 100-dən çox kilsə, eləcə də kral sarayı daxil olmaqla, çoxlu sayda saray yanmışdı. Moskvada yanğın. Moskvada yanğın 1812-ci ildə şəhər fransızlar tərəfindən ələ keçirildikdə başlamışdı. Güclü külək nəticəsində yanğın ildırım sürəti ilə yayılmışdı. Hadisə nəticəsində 9151 yaşayış evinin 6496-sı, 329 məbədin 122-si məhv olmuşdu. 2000-ə qədər yaralı Rusiya əsgəri alovda həlak olmuşdu. Teatrlar, kitabxanalar və digər mühüm binalar məhv olmuşdu. Çikaqoda böyük yanğın. Çikaqoda yanğın 1871-ci ildə baş verib və təxminən üç gün davam edib. Hər şey bir binanın yanması ilə başlayıb, lakin yanğın dərhal qonşu binalara keçib və tezliklə bütün şəhəri bürümüşdü. Yanğının qurbanlarının dəqiq sayı indiyə qədər də bilinmir, lakin məlumdur ki, onların sayı 300-dən çoxdur. 90 min nəfər isə evsiz qalmışdı. Bostonda yanğın. Bu, ABŞ-da ən bahalı yanğın hesab olunur. O, 1872-ci ildə baş vermiş və çoxlu sayda binanın, yaşayış evlərinin, bazarın dağılmasına gətirib çıxarmışdı. Şəhərin iqtisadiyyatına çox böyük ziyan dəymişdi. Minlərlə insan evsiz qalmışdı. Kalimantan adasında meşə yanğını. Bu yanğın 1982-ci ildə baş verib və adanın xeyli hissəsini əhatə edib. Yanğın təxminən 10 ay sürmüşdü və nəticədə 800 min hektar meşə ərazisi yanmışdı. Hadisə nəticəsində bir neçə nadir heyvan və bitki növünün nəsli kəsilmişdi. Avstraliyada yanğın. Avstraliyada 2009-cu ildə meşə yanğınları baş vermişdi, nəticədə Merisvill şəhərində 181 nəfər həlak olmuş, 750 bina tamamilə məhv olmuşdu. Şəhərin təxminən 80%-i yanğın nəticəsində məhv olmuşdu. Lakin Avstraliyadakı yanğınlar 2019-cu ildə təkrarlanmışdı.

Nəticədə 6,3 milyon hektardan çox meşə ərazisi yanmışdı. Hadisə nəticəsində 7 000-ə yaxın bina dağılmışdı. Yanğın zamanı xeyli sayda heyvan həlak olmuşdu. Bu, tarixin ən böyük meşə yanğını hesab olunur.

## "Azercell" "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi"nin təşkilinə dəstək verib

**Ölkənin lider mobil operatoru "Azercell" koronovirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində həyata keçirilən tədbirlərə töhfə verməkdə davam edir. Şirkət bu dəfə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Elektron Hökumətin İnkişafı Mərkəzi və Daxili İşlər Nazirliyinin birgə ərsəyə gətirdiyi "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" çərçivəsində vətəndaşların sorğularının operativ cavablandırılmasına dəstək olub.**

Müştərilərinin rahatlığını hər zaman prioritet hesab edən "Azercell" qısa müddət ərzində abunəçiləri üçün SMS icazə sistemini aktiv edib. Beləliklə, "Azercell" abunəçiləri 8103 nömrəsi vasitəsilə bu xidmətdən ödənişsiz yararlana bilirlər. Xatırladaq ki, tətbiq edilən sosial izolyasiya tədbirlərilə əlaqədar vətəndaşlar yaşayış yerlərini tərk etmək üçün 8103 nömrəsinə icazənin məqsədini bildirən xüsusi kodu, şəxsiyyət vəsiqələrinin seriya və nömrəsini göndərməlidirlər.

SMS icazə sisteminin istifadəyə verildiyi ilk günlərin həm vətəndaşlar, həm də Elektron Hökumətin İnkişafı Mərkəzi üçün ən gərgin zaman olduğunu nəzərə alaraq, "Azercell"in Telefon Mərkəzi xüsusi iş rejimində çalışıb. "Azercell" "ASAN xidmət"in müvafiq sisteminə(9108) dəstək göstərərək SMS icazə sistemindən istifadə qaydaları ilə əlaqədar daxil olan zəngləri və sualları operativ şəkildə cavablandırıb. Həmçinin, xidmətdən istifadə zamanı yarana biləcək sualları öncədən cavablandırmaq məqsədilə "Azercell" şirkəti tərəfindən xüsusi informativ videotəlimatlar hazırlanaraq, rəsmi sosial media hesablarında paylaşılıb.

Bundan əlavə, "Azercell" Elektron Hökumətin İnkişafı Mərkəzinə Mi-fi cihazları, limitsiz internet paketləri və limitsiz danışıq üçün xüsusi nömrələr hədiyyə etməklə, qurumu kəsintisiz rabitə xidmətləri ilə təmin edib.

Qeyd edək ki, qlobal pandemiya dövrü ərzində "Azercell" ölkədə yeni koronavirus infeksiyasının yayılmasının qarşısının alınması, eləcə də iqtisadi sabitliyin qorunması və əhalinin sosial rifahının yüksəldilməsi üçün hökumət tərəfindən görülən tədbirlərə dəstək məqsədilə bir sıra layihələr həyata keçirib, müxtəlif sosial təşəbbüslərə imza atıb.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Aktiv, enerji ilə zəngin sizə faydalı və çoxsaylı işləri görməyə imkan verən gündür. Müxtəlif yerlərdə olacaq, fərqli insanlarla görüşəcəksiniz. Təmasların ab-havası sakit, yaradıcı və dostyana olacaq.



**Buğa** - Sizin üçün mühüm dövrlərdən biridir. Günəş və Plutonun tutduqları mövqelər bundan xəbər verir. Mərhələ dəyişikliyi yaşanır. Önəmli işin birindən imtina edərək başqasına başlayaraq sizin üçün ən əhəmiyyətli olanı seçin.



**Əkizlər** - Şərait dəyişir, sizdən səbr və məntiq, həyata fəlsəfi baxış tələb olunur. Günəş və Pluton sizin üçün tərəfdaşlıq müstəvisini fəallaşdırıb. Münasibətlərdəki problemlər sizi narahat edərsə, onları məhz indi həll edin.



**Xərçəng** - Təzyiq, narazılıq hissləri keçirəcəksiniz. Hansısa önəmli məqamı nəzərdən qaçırdığınızı, yad ünsürlərin artmağa başladığını duyacaqsınız. Köhnəlmiş təmaslar və əlaqələrdən qurtulun.



**Şir** - Şərait sizdən güzəşt tələb edərsə, razılaşın. Hər şey bərpa olunacaq, yerini tapacaq. Bir sahədə uduzsanız, başqa sahədə mütləq önəmli irəliləyişə nail olacaqsınız. Alış-verişdə simiclik etməyin.



**Qız** - Münaqişələr qaçılmazdır. İctimai fəallığı gərəkli minimum səviyyəsinə endirin. İşlə məşğul olun. Fiziki iş daha məsləhətdir. Ətrafınızda qayda yaradın. Axşam saatlarında əhvalınız daha nikbin olacaq.



**Tərəzi** - Planların pozulmasını emosional qarşılamayın. Kimsə diqqətinizi yayındıra bilər. Günün ilk yarısında dostlarla planlaşdırılmamış görüş və ya tanışlarla problemin həlli mümkündür.



**Əqrəb** - Rəvan olmayan, həyəcanlar və emosiyalarla dolu gündür. Təxminlənməyən, qəfil hadisələrin sayını minimuma salın. Riskə getməyin, oraqnizminiz üçün ifrat yük ola biləcək heç nə etməyin.



**Oxatan** - Çətin, güclü emosiyalar günüdür. Çətinlikləri yeni imkanların carçısı hesab edin. Situasiyaya fərqli baxın və ola bilər ki, ən mürəkkəb vəziyyətdə sərfəli məqamlar tapasınız.



**Oğlaq** - Təmkinl davranış münasibətləri tənzimləməyin ən yaxşı yoludur. Evdə qayğılar arta bilər. Səhər saatlarında görəcəyiniz işləri müəyyənləşdirin, axşam saatlarında isə istirahət edin, əylənin.



**Dolça** - İşlə bağlı məsələlərin sizi narahat edəcəyinə hazır olun. Bu gün virtual və ya real görüşləri müəyyənləşdirin. Günün ilk yarısında münasibətlərin aydınlaşdırılması planları poza bilər.



**Balıqlar** - Mühüm situasiya böhran mərhələsinə daxil ola bilər. Batini dəyərləndirmədə fərqli vəziyyət yaranacaq. Ətrafınızda dəyişən şərtlərə, özü barədə məlumat vermək istəyənə, gələn xəbərlərə diqqət yetirin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Ukraynada robot polis yaradılıb

**Ukraynanın "İnfokom LTD" şirkəti robot polis yaradıb. "Trend" xəbər verir ki, robotun əsas məqsədi epidemiya müddətində polislə vətəndaşların ünsiyyətini azaltmaq üçün küçədə patrul həyata keçirmək olacaq.**



Robot hər hansı bir qanun pozuntusunun qarşısının alınması məqsədilə toratan qurğu, gözyaşardıcı qaz baloncuqları, eləcə də səsgücləndirici, videokamera və müxtəlif ötürücülərlə təchiz edilib.

Robot polis həm məsafədən idarə oluna, həm də müstəqil şəkildə hərəkət edə bilər.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.